# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 25 (3349) Şənbə / 6-10 mart 2021-ci il Qiymәti 40 qәpik


## MÜSAHİB

## “Mütəllibovun hakimiyyətdə qalması da, getməsi də təhlükəli idi...”



**Etibar Məmmədov,**
AMİP lideri

***29 il öncə bu günlər, yəni 1992-ci il martın 5-6-da o zaman Azərbaycanın ilk Prezidenti olan Ayaz Mütəllibov Xocalı soyqırımından sonra ölkədə yaranmış vəziyyət səbəbindən hakimiyyətdən istefa vermək məcburiyyətində qaldı. Olayın üzərindən 3 onillik ötsə də, bu haqda hələ də təhlillər aparılır, qaranlıq məqamlar araşdırılır. Bəhs edilən hadisələrin fəal iştirakçılarından olmuş AMİP lideri Etibar Məmmədov “Həftə içi” əməkdaşının suallarına cavabında bir sıra diqqətəlayiq fakt və mülahizələri dilə gətirib.***

*Belə hakimiyyət çevrilişi və dəyişikliklərindən həmişə xalq da, dövlət də heç nə qazanmır, əksinə, uduzur...*

Səh. 3

# YAP yeniləndi



***40 nəfərlik İdarə Heyəti***
***13 nəfərlik Təftiş Komissiyası***
***35 nəfərlik Veteranlar Şurası***

## Mehriban Əliyeva partiya sədrinin birinci müavini təyin edilib

Martın 5-də Yeni Azərbaycan Partiyasının (YAP) VII qurultayı keçirilib. YAP-dan hafta.az-a verilən məlumata görə, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev və Birinci vitse-prezident, Yeni Azərbaycan Partiyasının Sədrinin müavini Mehriban Əliyeva Qurultayın işində iştirak ediblər.

Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev qurultayda videoformatda geniş məruzə ilə çıxış edib. Dövlət başçısı çıxışına Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı atılan son addımları xatırlatmaqla başlayıb. Onun sözlərinə görə, son 17 il ərzində münaqişə ilə bağlı bütün çıxışlarında heç vaxt Azərbaycan xalqının bu işğalla barışmayacağını deyib: ”Heç vaxt Azərbaycan imkan verməyəcək ki, tarixi, əzəli torpaqlarında ikinci erməni dövləti yaradılsın.

Heç vaxt bizi tam qane etməyən razılaşma ilə barışmayacağıq və müharibədən əvvəl müxtəlif çıxışlarda, müsahibələrdə deyirdim ki, bizə hansısa yarımçıq sülh müqaviləsi lazım deyil. Biz ərazi bütövlüyümüzü tam bərpa etməliyik. Biz tarixi ədaləti tam bərpa etməliyik. Çünki yarımçıq razılaşma bizim xalqımızın maraqlarına cavab vermirdi, tarixi ədalətə cavab vermirdi.

Yarımçıq razılaşma istər-istəməz gələcəkdə müharibə risklərini artıra bilərdi. Bizə isə tam, mütləq qələbə lazım idi. Biz bu mütləq qələbəni qazandıq, düşməni darmadağın etdik, düşmən ordusunu məhv etdik və istədiyimizə nail olduq.Ötən son 3 il ərzində prezident və parlament seçkiləri keçirilmişdir. Prezident və parlament seçkilərinin ölkəmizin müasir həyatında xüsusi yeri vardır. Xüsusilə nəzərə alsaq ki, prezident və parlament seçkilərində ölkəmizdə gedən islahatlar daha bir mərhələyə qədəm qoydu və bu gün Azərbaycan genişmiqyaslı islahatlar aparan ölkədir.

Biz gündəlik həyatda, ölkəmizin iqtisadi göstəricilərində, sosial sahədə əldə edilmiş nailiyyətlərdə görürük ki, bu islahatların çox böyük əhəmiyyəti var. Eyni zamanda, ictimai-siyasi iqlimin sağlamlaşdırılmasında da bizim təşəbbüslərimizin, islahatlarımızın böyük rolu vardır”.

Dövlət başçısının sözlərinə görə, prezident seçkilərindən sonra bəyan etdiyi proqram icra olunur və biz ardıcıllıqla öz hədəflərimizə çatırıq: ”Prezident seçkilərindən sonra mən ərazi bütövlüyümüzün bərpasını qarşıya birinci dərəcəli vəzifə kimi qoymuşdum və biz buna nail olduq. Eyni zamanda, siyasi, iqtisadi, sosial və başqa sahələrdə, o cümlədən xoşagəlməz hallara qarşı mübarizədə də qarşımıza açıq-aydın hədəflər qoyuldu. Biz ardıcıllıqla və məqsədyönlü şəkildə bu hədəflərə çatırıq.

Bu gün Yeni Azərbaycan Partiyasının VII qurultayının keçirilməsinin zərurəti məhz bu səbəblərdən doğur. Yeni bir vəziyyət yaranmışdır, bu vəziyyəti biz yaratmışıq. Biz reallıqları yaradan ölkəyik. Bundan əvvəlki dövrlərdə də bizim təşəbbüslərimizlə reallaşan bir çox layihələr bölgəyə yenilik gətirdi, əməkdaşlığın yeni formatlarını şərtləndirdi. Bizim uğurlu enerji siyasətimiz, nəqliyyat siyasətimiz nəinki enerji və nəqliyyat dəhlizlərinin yaranmasına gətirib çıxardı, eyni zamanda, bölgədə və geniş mənada Avrasiya məkanında yeni əməkdaşlıq formatlarını yaratdı. Bu gün bu layihələr ətrafında birləşən və bu layihələri bizimlə bərabər icra edən ölkələrin sayı artmaqdadır. Bu, istər-istəməz həmin ölkələr arasında, hətta əvvəlki dövrlərdə bir-biri ilə o qədər isti münasibətləri olmayan ölkələr arasında da əməkdaşlığı labüd edir. Ona görə son vaxtlar bizim siyasətimizlə bağlı dünyada gedən düzgün təhlillər və bizim fəaliyyətimizə verilən yüksək qiymət həqiqəti tam əks etdirir. İkinci Qarabağ müharibəsinin nəticələri də bölgə üçün yeni reallıqlar yaratmışdır. Bölgədə yeni əməkdaşlıq imkanları yaranmışdır. Uzunmüddətli sülhün təmin edilməsi üçün çox önəmli şərtlər yaradılmışdır və eyni zamanda, ölkəmizdə də yeni dövrə qədəm qoymaq üçün yeni imkanlar yaranıb.

Biz bütün işləri ardıcıllıqla edirik və əgər son 17 illik tariximizə nəzər salsaq görərik ki, qarşıya hədəflər qoyulurdu, hədəflər düzgün müəyyən edilirdi, biz bu hədəflərə çatırdıq və ondan sonra qarşımıza yeni hədəfləri qoyurduq. Beləliklə, həm siyasi, həm iqtisadi sahədə dayanıqlı inkişafı təmin etdik, beynəlxalq aləmdə Azərbaycanı çox böyük nüfuza və hörmətə malik olan ölkəyə çevirdik və əsas məsələmizi - ərazi bütövlüyümüzün bərpasını təmin etdik”. Dövlət başçısının sözlərinə görə, Yeni Azərbaycan Partiyasının adı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Partiya Heydər Əliyevin ətrafında yaradılmışdır, onun siyasi təcrübəsi, bilikləri, xalq qarşısında göstərdiyi xidmətlər, Naxçıvanda çalışdığı dövrdə göstərdiyi əsl vətənpərvərlik və öz xalqına olan sadiqlik Azərbaycanın mütərəqqi insanlarını onun ətrafında birləşdirdi.

Prezident vurğulayıb ki, Yeni Azərbaycan Partiyasının yaradılması zərurət idi: ”O vaxt, yenə də deyirəm, cəsarətli, qorxmaz insanlar açıq-aydın görürdülər ki, təzə-təzə müstəqilliyə qovuşmuş gənc ölkəmiz böyük fəlakətlə üzüzədir və artıq ölkədə gedən proseslər idarəolunmaz xarakter almışdır. Hərbi məğlubiyyət eyni zamanda, daxili böhranla tamamlanır. Ölkə daxilində gedən xoşagəlməz proseslər, siyasi çəkişmələr, hakimiyyət uğrunda mübarizə ölkəmizin müstəqil yaşamasını sual altına qoymuşdur. O günləri, o ayları təsəvvür etmək üçün, bu gün Ermənistanda baş verən hadisələrə nəzər yetirmək kifayətdir. Faktiki olaraq onun əksidir, ümidsizlik, cəmiyyətdə hökm sürən total apatiya, depressiya, heç bir siyasi qüvvəyə inamın olmaması, iqtidara inamın olmaması, müxalifətə inamın olmaması, bax, bu, idi o vaxt gənc müstəqil Azərbaycanın mənzərəsi.

Səh. 2

**Bu gün Yeni Azərbaycan Partiyasının VII qurultayının keçirilməsinin zərurəti məhz bu səbəblərdən doğur. Yeni bir vəziyyət yaranmışdır, bu vəziyyəti biz yaratmışıq**

## MÜSAHİB



**Novella Cəfəroğlu,**
Dilarə Əliyeva adına Qadın Hüquqlarının Müdafiəsi İctimai

- *Niyə bizim qadın nazirlərimiz olmasın?!*
- *Bu il 8 Mart, yubleyim, Novruz Bayramı, hamısı mənim üçün qələbəmizin bayramıdır.*
- *Qadına münasibətin necə olması onun özündən də asılıdır.*

Səh. 6

## GÜNÜN FOTOSU...



**Vaksinasiya zamanı sıxlıq...**

## GÜNÜN SİTATI

*“Qəbul eləsən də, eləməsən də zaman hər şeyi həll edir. Bizdə də şüurlu yanaşma formalaşmalıdır ki, vaxtın gəlibsə, özün könüllü şəkildə geriyə çəkilməlisən”*



**Elman Məmmədov,**
millət vəkili

## KARİKATURA




**Koronavirus ölkəmizdə 1 yaşını qeyd edir...**

## Beynəlxalq ictimaiyyətin səssizliyi təəssüf doğurur

**Könül Nurullayeva,**
Milli Məclisin deputatı

Artıq monitorinq aparılacaq ərazilər bəzi beynəlxalq qurumların iddia etdiyi kimi “mübahisəli ərazilər” yox, Azərbaycanın BMT səviyyəsində tanınan əraziləridir.

Səh. 3

## STATİSTİKA



**Azərbaycan qadınları ölkənin sosial-iqtisadi həyatında fəal iştirak edir və onların məşğul əhalinin ümumi sayındakı xüsusi çəkisi ilkin məlumatlara əsasən 48,2 faiz təşkil edir.**

Dövlət qulluğunda çalışanlar arasında qadınların xüsusi çəkisi 29,0 faiz, sahibkarlar arasında isə 21,3 faizdir. Ölkədə həkimlərin üçdənikisi qadınlardır.



Səh. 5

## Fövqəladə Hallar Nazirliyinin Akademiyasında bir gün

## Müsahib

# "Mütəllibovun hakimiyyətdə qalması da, getməsi də təhlükəli idi..."

**29 il öncə bu günlər, yəni 1992-ci il martın 5-6-da o zaman Azərbaycanın ilk Prezidenti olan Ayaz Mütəllibov Xocalı soyqırımından sonra ölkədə yaranmış vəziyyət səbəbindən hakimiyyətdən istefa vermək məcburiyyətində qaldı. Olayın üzərindən 3 onillik ötsə də, bu haqda hələ də təhlillər aparılır, qaranlıq məqamlar araşdırılır. Bəhs edilən hadisələrin fəal iştirakçılarından olmuş AMİP lideri Etibar Məmmədov "Həftə içi" əməkdaşının suallarına cavabında bir sıra diqqətəlayiq fakt və mülahizələri dilə gətirib.**



**Etibar Məmmədov,**
AMİP lideri

***- Etibar bəy, necə hesab edirsiniz, 1992-ci il martın 5-6-da Azərbaycanın ilk Prezidenti Ayaz Mütəllibovun istefasına nail olmaqla Azərbaycan Xalq Cəbhəsi özü nə qazandı və xalqa nə qazandırdı?***

- Ümumiyyətlə, istefalar, mütəmadi hakimiyyət dəyişiklikləri istənilən ölkə üçün heç də yaxşı hal deyil... Sadəcə, ovaxtkı Prezident Ayaz Mütəllibov öz üzərinə düşən vəzifələri yerinə yetirə bilmirdi. O, xaraktercə zəif adam idi, ölkəni idarə etməyi bacamırdı. Onun üzərinə düşən ən böyük vəzifə Azərbaycan xalqının təhlükəsizliyini təmin etmək idi. Mütəllibov isə bunu edə bilmirdi. Ölkənin idarəçiliyi prosesində hələ də SSRİ-nin bərpa olunmasından ehtiyatlanırdı. Odur ki, Moskvadan əmrlər gözləyir və istənilən hərəkəti üçün razılıq almağa çalışırdı. Ona görə də bir dövlət başçısı kimi Mütəllibovdan həm öz komandası daxilində, həm də ölkə daxilində ümumi narazılıq vardı. Bu amillər də nəticə olaraq onun istefasına gətirib çıxardı...

Nəsə qazanılmasına gəldikdə, belə hakimiyyət çevrilişi və dəyişikliklərindən həmişə xalq da, dövlət də heç nə qazanmır, əksinə, uduzur...

***- Ayaz Mütəllibov özü deyir ki, müxalifət liderlərini daim, Xocalı faciəsindən öncə də dialoqa çağırırdım və deyirdim ki, siz əksəriyyətiniz hələ cavansınız, mənə ikicə ay möhlət verin, Qarabağ məsələsini həll edək, ondan sonra seçki keçirək və xalq kimi seçərsə, o da hakimiyyətə gəlsin. Eksprezidentin sözlərinə görə, AXC liderləri bununla razılaşmayıb...***

- Bilmirəm, Mütəllibov kiminlə nə danışıb, kimə nə təklif edib. Özüm onunla görüşlərdə fikirlərimi bildirmişdim. Demişdim ki, onun bu cür fəaliyyətsizliyi və dişsizliyi ölkə üçün ağır nəticələrə gətirib çıxara bilər. Təəssüf ki, o, belə tənqidləri dinləmədi və nəticədə həm özü, həm də ölkə üçün pis oldu...

***- Sabiq dövlət başçısının sözlərinə görə, müxalifət Ali Sovetdəki təzyiqləri ilə ona 1992-ci il fevralın 15-də Kiyevdəki sammitdə MDB-nin ümumi ordu birləşməsinə Azərbaycanın da qoşulması üçün imza atmasına imkan verməyib. Guya belə olsaydı, Xocalı faciəsi baş verməyəcəkdi. Yəni Rusiyanın Xankəndindəki 366-cı alayı ermənilərə kömək etməyəcəkdi...***

- Yox, bu, doğru deyil. Mütəllibov bunu özünə bəraət qazandırmaq üçün deyir. Onun fikri bundan ibarət idi ki, biz özümüz ordu yarada bilmərik, öz ordumuz olmasın, Azərbaycan MDB-nin ümumi ordu birliyinə qoşulsun və ümumiyyətlə, Azərbaycan MDB-yə daxil olsun. Zənnimcə, Mütəllibov perspektivi görə bilmirdi. O, dövlətin qarşısında duran vəzifələri özü üçün müəyyənləşdirə bilmirdi, qarşısına proqram məqsədlər qoymağı bacarmırdı. Həmin proqram məqsədlər ətrafında komanda toplaya bilmirdi. Yəni dövlət başçısı kimi Mütəllibovun bu cür zəif xarakteri vardı. Ona görə də MDB-yə, yaxud onun ümumi ordu birliyinə qoşulmaq yalnız məsuliyyəti öz üzərindən atıb onların, Moskvanın ixtiyarına vermək məqsədi daşıyırdı. Bu isə Azərbaycanın mənafelərinə zidd idi. Bunun da nəticə etibarilə nəyə gətirib çıxarmasını hamı gördü.

*"Belə hakimiyyət çevrilişi və dəyişikliklərindən həmişə xalq da, dövlət də heç nə qazanmır, əksinə, uduzur...*

Xocalı soyqırımının baş verməsi və oradakı insanların vaxtında müdafiə olunmaması da yenə Prezidentin məsuliyyətidir. O, ölkəyə nəzarət etməyi bacarmalıydı və xəbəri olmalıydı ki, Xocalını hansı təhlükə gözləyir və bunun qarşısını almaq üçün hansı işlər görülməlidir. Onun yerinə başqaları bu işlərlə məşğul olurdu. Təbii ki, başqaları da dövlət səviyyəsində böyük işlər görə bilməzdi. Hərə öz bacardığı səviyyədə nəsə etməyə çalışırdı.

Ona görə də nə vahid komandanlıq, nə vahid idarəçilik vardı və nəticə olaraq gözlənilən faciənin qarşısını almaq mümkün olmadı... Konkret bir misal deyə bilərəm ki, Xocalı faciəsindən bir müddət əvvəl Bakıya Fələstin Azadlıq Təşkilatının 3 nümayəndəsi gəlmişdi. Mən onlarla görüşdüm. Onlar bildirdilər ki, bizdə etibarlı mənbələrdən olan məlumata görə, Xocalı istiqamətində Azərbaycana qarşı ciddi bir əməliyyat hazırlanır.

Mən dərhal o vaxtkı dövlət müşaviri Vəfa Quluzadəyə telefon açdım və FAT nümayəndələrini birbaşa hava limanından göndərdim Ayaz Mütəllibovun qəbuluna... Yəni onlar əllərində çox ciddi məlumatları olan şəxslər idi və öz xidmətlərini təklif edirdilər... Təəssüf ki, dövlət səviyyəsində bunun qarşısını almaq üçün lazım olan tədbirlər görülmədi və nəticə də çox acınacaqlı alındı...

***- Etibar bəy, Mütəllibovun istefasından sonra Şuşa və Laçın işğal olundu. Ardınca isə hakimiyyətə sizin də qəbul etmədiyiniz və müxalifətdə olduğunuz bir hakimiyyət gəldi.***

Bu səbəbdən ölkənin birinci Prezidentinin istefaya getməyinə dəstək verməyinizə görə peşman deyilsiniz ki?

- Bilirsiniz, o günlər elə bir vəziyyət yaranmışdı ki, Mütəllibovun hakimiyyətdə qalması da təhlükə idi, istefa verməsi də təhlükəli idi. Yəni idarəolunmaz bir vəziyyət yaranmışdı və o zaman da hakimiyyətdə olan 2-ci, 3-cü ranqlı adamlara şəxsən mən də təklif etdim ki, idarəçiliyi möhkəm şəkildə ələ götürüb ölkəni idarə etsinlər. Yəni dövlət idarəsiz qalmasın. Təəssüf ki, onlar tamam başqa işlərlə məşğul oldular. Ona görə də ölkədə həmin qarışıq, xaotik vəziyyət yarandı. Yəni ölkə bir neçə ay ərzində idarəolunmaz vəziyyətə düşdü. Əlbəttə ki, belə bir situasiyada hamı peşman olmalıdır. Onu da nəzərə almaq gərəkdir ki, bizim o zaman böyük bir təcrübəmiz və imkanlarımız yox idi. Bu baxımdan hər şeyə özümüz də nəzarət edə bilmədik. Yalnız əlində dövlət "rıçaqları" olan vəzifəli şəxslər bu xaosun qarşısını almağa qadir idilər. Dediyim kimi, təəssüf ki, onların da böyük təcrübələri, imkanları olsa da, bunlardan başqa məqsədlər üçün istifadə edirdilər. Həm komanda daxilindəki intriqalar, həm də ölkədəki idarəolunmaz vəziyyət də sonda ağır nəticələrə gətirib çıxardı...

*✍ Sultan Laçın*

# Beynəlxalq ictimaiyyətin səssizliyi təəssüf doğurur



**Könül Nurullayeva,**
Milli Məclisin deputatı

Azərbaycanın işğaldan azad olunmuş ərazilərində ermənilərin mədəni irsə qarşı törətdiyi vandallıq aktlarına dair sübutlar kifayət qədərdir. Bu ərazilərə səfər edən diplomatik korpus nümayəndələri, eyni zamanda xarici jurnalistlər də bu faktların şahidi olub. O da məlumdur ki, çoxkonfessiyalı və tolerant ölkə olan Azərbaycan azad edilmiş ərazilərdə təkcə müsəlmanlara deyil, həm də xristianlara və digər dinlərə məxsus abidələri də bərpa etmək niyyətindədir.

**■ Bu fikirləri hafta.az-a açıqlamasında millət vəkili Könül Nurullayeva səsləndirib. Onun sözlərinə görə, məlumdur ki, işğal dövründə bir neçə dəfə faktaraşdırıcı missiyasının sırf mədəni-dini abidələrin vəziyyətilə bağlı apardıqları monitorinqin nəticələrinə dair hazırlanan hesabatlar obyektiv olmayıb:**

*"Artıq monitorinq aparılacaq ərazilər bəzi beynəlxalq qurumların iddia etdiyi kimi "mübahisəli ərazilər" yox, Azərbaycanın BMT səviyyəsində tanınan əraziləridir*

"Bu gün isə Azərbaycanın öz ərazi bütövlüyünü təmin etməsilə həm də bu faktların daha qabarıq və açıq formada təqdim olunması üçün imkan yaranıb. Lakin İSESCO istisna olmaqla aidiyyatı beynəlxalq təşkilatlar məsələyə laqeyd yanaşmaqda davam edir. Prezident İlham Əliyev bütün çıxışlarında dünyanın diqqətini mədəni irsə qarşı həyat keçirilən terror aktlarına yönəldir. Dünya KİV-ləri işğal dövründə ermənilərin törətdiyi vandallıq və terror aktlarını video və fotofaktlarla təqdim edir. Azərbaycan hətta faktları yerində təqdim etməyə hazırdır. Yəni, obyektiv araşdırma üçün heç vaxt olmadığı qədər tarixi şans yetişib.

Lakin təəssüflə qeyd etməliyik ki, beynəlxalq təşkilatlar məsələyə susqunluq və laqeyd münasibəti davam etdirirlər. Halbuki söhbət 1-2 abidədən getmir. İşğaldan azad edilmiş rayonlarda yaşayış evləri və inzibati binalarla yanaşı, 700 tarixi-mədəni abidə, 927 kitabxana, 800 mədəniyyət mərkəzi, 85 musiqi və incəsənət məktəbi, ümumilikdə 22 muzey məhv edilib və ya yararsız hala salınıb.

Regiondakı dini abidələrin dağıdılması ayrıca bir mövzudur. Çünki burada həm də təhqir və saxlaşadırma faktları var. Məscidlər tövlə məqsədi ilə istifadə olunub və ya təmir adı ilə saxtalaşdırmaya məruz qalıb. Alban kilsələrinin hamısı saxtalaşdırılıb. Məsələ burasındadır ki, bu saxtalaşdırma faktları o qədər aşkar və üzdədir ki, onların dərin araşdırılmasına da ehtiyac yoxdur. Sadəcə, monitorinq aparmaq kifayətdir. Üstəlik, bəzi beynəlxalq qurumların təbirincə desək, "siyasiləşdirmə"dən də söhbət getmir. Çünki artıq münaqişə başa çatıb. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edib. Artıq monitorinq aparılacaq ərazilər bəzi beynəlxalq qurumların iddia etdiyi kimi "mübahisəli ərazilər" yox, Azərbaycanın BMT səviyyəsində tanınan əraziləridir. Yəni, obyektiv araşdırma aparmağa, faktların təftiş və təqdim edilməsinə mane olacaq heç bir tutarlı arqument yoxdur.

Amma prosesə mane olan yenə də ikili standartlar siyasətidir ki, elə bu yanaşma ucbatından Cənubi Qafqaz regionunda 30 ilə yaxın müddətdə "status-kvo" dəyişməz qalırdı, bölgədə sülh və təhlükəsizliyin təmin olunması mümkün deyildi. Azərbaycan iradə nümayiş etdirərək, bölgədə sülh və təhlükəsizliyi təmin etdi. İndi beynəlxalq təşkilatların və dünya birliyinin də iradə sərgiləməsinə ehtiyac var.

*✍ Azad*

## İqtisadiyyat

# Azərbaycan iqtisadi azadlıq indeksində ön sırada

**Azərbaycan 2021-ci ildə iqtisadi azadlıq səviyyəsi üzrə dünya ölkələrinin reytinqində 178 ölkə arasında 38-ci yeri tutub. Belə ki, ABŞ-ın "İrs Fondu" (The Heritage Foundation) tədqiqat mərkəzi və "The Wall Street Journal" qəzeti tərəfindən hər il dərc olunan dünya ölkələrinin vətəndaşlarının iqtisadi azadlıq səviyyəsinə görə 2021-ci il üçün Azərbaycanın indeksi 70,1 təşkil edib. Reytinqə ardıcıl ikinci ildir ki, Sinqapur başçılıq edir. Ölkə mümkün 100 baldan 89,7-ni toplayıb.**



İlk üçlükdə Yeni Zelandiya (83,9 bal) və Avstraliya (82,4) da yer alıb. İlk beşliyi İsveçrə və İrlandiya bağlayır. ABŞ 74,8 bal göstərici ilə reytinqdə 20-ci yeri tutub. Hesabat müəllifləri Rusiyanı 61,5 bal ilə 92-ci yerə layiq görüblər. Çinin materik hissəsi geriləyib və reytinqə daxil edilmiş 178 ölkə arasında 107-ci (58.4 bal) olub. Reytinqi Kuba, Venesuela və Şimali Koreya tamamlayır.



**Əli Əlirzayev,**
İqtisad Universitetinin professoru, iqtisad elmlər doktoru

Xatırladaq ki, ölkəmizin 2020-ci ildə bu göstəriciski 69,3 olmuş (2019-cu ildə isə 65,4) və Azərbaycan 44-cü sırada (2019 ildə 60-cı) qərarlaşmışdı.

Hesabat müəllifləri bu qənaətdədirlər ki, Azərbaycanda güzəştli ticarət haqqında beş razılaşma qüvvədədir. Orta çəkili tarif dərəcəsi 8,5 faiz təşkil edir, qeyri-tarif maneələri isə bəzi əməliyyatların icrasını çətinləşdirir: "Azərbaycan hələ Ümumdünya Ticarət Təşkilatının üzvü deyil. Ölkə tədricən iqtisadiyyatının daha çox şaxələndirilməsinə doğru irəliləyir. Şəxsi gəlir vergisinin maksimum dərəcəsi 25 faiz, ən yüksək mənfəət vergisi dərəcəsi isə 20 faizdir. Ümumi vergi yükü ümumi daxili gəlirin 13 faizini təşkil edir. Dövlət xərcləri son üç ildə ümumi daxili məhsulun (ÜDM) 34,1 faizini təşkil edib, büdcə profisiti isə orta hesabla ÜDM-in 4,2 faizi həcmində olub. Maliyyə sektoru sabitdir, ancaq dövlət bankları üstünlük təşkil edir. Kapital bazarında heç bir məhdudlaşdırıcı tədbir tətbiq edilməyib".

*"Bu statusu qorumaq üçün hökumət bu il islahatlarını davam etdirməlidir"*

Hesabatda qeyd edilir ki, Azərbaycan Avropa regionunun 45 ölkəsi arasında 23-cü yerdədir, onun ümumi balı regional ortalamaya bərabərdir, lakin dünya ortalamasından yüksəkdir: "Azərbaycan iqtisadiyyatı böyük iqtisadi azadlıqdan faydalanmağa davam edir. Ölkənin 2021-ci ildəki ümumi balı "əsasən azad" kateqoriyasına keçidə imkan verib. Bu statusu qorumaq üçün hökumət bu il indeksin mülkiyyət hüququ, məhkəmə sisteminin effektvliyi kimi göstəricilərində əldə etdiyi irəliləyişi davam etdirməlidir". Qeyd edək ki, ölkə reytinqləri 1995-ci ildən bəri dərc olunur. Ölkəyə veriləbiləcək maksimum indeks 100 baldır ki, bu, mütləq azadlığı göstərir. Minimum indeks isə 0 baldır ki, bu da iqtisadi azadlığın heç olmadığı ölkələrə verilir. Reytinqdəki bütün ölkələr beş kateqoriyaya bölünür: "azad" (indeksi 80-100 bal arasında olan ölkələr), "əsasən azad" (70-79,9 bal), "orta dərəcəli azad" (60-69,9 bal), "əsasən qeyri-azad" (50-59,9 bal) və "qeyri-azad" (0-49,9 bal).



**Ayaz Müseyibov,**
İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin departament rəhbəri

### Beynəlxalq hesabatlarda ölkəmiz öz qiymətini alır

**■ Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən İqtisad Universitetinin professoru, iqtisad elmlər doktoru Əli Əlirzayev bildirib ki, bu reytinq hər il mütəxəssislər tərəfindən iqtisadi və ticarət azadlıqlarının dərəcəsi, investisiya açıqlığı, dövlətin iqtisadiyyata müdaxiləsi, korrupsiya faktoru və s. nəzərə alınmaqla tərtib olunur:** "Sözügedən indeks üzrə Azərbaycanın mövqeyinin möhkəmlənməsi mühüm hadisədir. Hesabatda qeyd edilir ki, Azərbaycan Avropa regionunun 45 ölkəsi arasında 23-cü yerdədir, onun ümumi balı regional ortalamaya bərabərdir, lakin dünya ortalamasından yüksəkdir. Eyni zamanda, Azərbaycan iqtisadiyyatı böyük iqtisadi azadlıqdan faydalanmağa davam edir. Ölkənin 2021-ci ildəki ümumi balı "əsasən azad" kateqoriyasına keçidə imkan verib. Təbii ki, bu statusu qorumaq üçün hökumət bu il islahatlarını davam etdirməlidir. Ümumiyyətlə, mən həmişə bu cür hesabatlara münasibətdə, o cümlədən beynəlxalq maliyyə və reytinq qurumlarının rəylərinə dair açıqlamalarımda qeyd etmişəm ki, bunlar ölkədə aparılan islahatların nəticəsidir. Belə ki, əksər beynəlxalq reytinq agentlikləri tərəfindən ard-arda ölkə iqtisadiyyatının real vəziyyəti haqqında müsbət mövqe nümayiş etdirilir. Bütün hesabatlarda Azərbaycanın adının yüksəlməsini müşahidə edirik. Bu da təsadüfi deyil. Bütün bunlar göstərir ki, ölkədə investisiya şəraiti durmadan yaxşılaşdırılır. Sahibkarlıq fəaliyyəti ilə məşğul olanlar üçün müvafiq stimulverici tədbirlər həyata keçirilir. Bütün bunların nəticəsi də beynəlxalq hesabatlarda öz qiymətini alır".

*"İndeksin metodologiyasına əsasən iqtisadi azadlıq siyasətini həyata keçirən ölkələr ticarət və sahibkarlığın inkişafı üçün əlverişli şərait yaradır"*

### Azərbaycan Fransa, İtaliya kimi inkişaf etmiş ölkələri qabaqlayıb

**■ İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin departament rəhbəri Ayaz Müseyibov isə bildirib ki, Azərbaycan indeksin nəticələrinə əsasən, Avropa regionunda 45 ölkə arasında 23-cü yerdə qərarlaşıb:** "Bundan əlavə, sözügedən hesabatın nəticələrinə əsasən, Azərbaycan Polşa, İspaniya, Sloveniya, Fransa, İtaliya və bu kimi inkişaf etmiş ölkələri qabaqlayıb. İqtisadi azadlığın inkişafı ilə insan kapitalının inkişafı arasında sıx əlaqə mövcuddur və Azərbaycan "İqtisadi Azadlıq İndeksi" üzrə ən çox irəliləyən ölkələr sırasındadır. Bu yüksəlişə isə əsas etibarı ilə bank, əmlak, monetar, vergi, fiskal və digər istiqamətlərdə qeydə alınan inkişaf trendləri ilə nail olunub. Azərbaycan öz göstəricilərini 0,8 bənd artırmaqla 70,1 bal əldə etməyə nail olub ki, bu da ölkəyə "mülayim azad iqtisadiyyat ölkələri" qrupundan "əsasən azad iqtisadiyyat ölkələri" qrupuna keçməyə imkan verib. 2021-ci il hesabatında "Qanunun aliliyi" indikatoru üzrə əmlakın qeydiyyatı, kreditlərin əldə olunması, minoritarların hüquqlarının müdafiəsi, müqavilələrin icrası kimi sahələrdə inkişaf tendensiyaları qeydə alınıb. Hesabatda "Dövlətin ölçüsü" indikatorunun hər üç alt indikatoru - "Vergi yükü", "Dövlət xərcləri", "Fiskal sağlamlıq" üzrə, "İdarəetmənin səmərəliliyi" indikatorunun isə "Monetar azadlıq" alt indikatoru üzrə irəliləyişlər müşahidə olunub".

A.Müseyibov qeyd edib ki, indeksin metodologiyasına əsasən iqtisadi azadlıq siyasətini həyata keçirən ölkələr ticarət və sahibkarlığın inkişafı üçün əlverişli şərait yaradır və bu da öz növbəsində iqtisadi artıma və ictimai rifahın yüksəlməsinə töhfə verir.

"İqtisadi Azadlıq İndeksi" "Qanunun aliliyi", "İdarəetmənin səmərəliliyi", "Dövlətin ölçüsü", "Bazarın əlçatanlığı" kimi əsas indikatorlar və onların alt-indikatorları daxil olmaqla ümumilikdə 12 göstərici əsasında iqtisadi azadlığa təsir amillərini cəmləyərək vahid bal və reytinq ilə qiymətləndirir: "Hər bir göstərici üzrə ölkələrə 0-100 arası bal verilir. Ölkə nə qədər çox bal alsa, deməli, iqtisadi azadlıq səviyyəsi də bir o qədər yüksəkdir".

*✍ Sevinc*

# Azərbaycan doğum səviyyəsinə görə Qafqazda liderdir

## Layihə

***Son illər ölkəmizdə həyata keçirilən islahatlar demoqrafik inkişafın təmin olunması üçün əlverişli şərait yaradıb. Vətəndaş amilinin ön planda dayandığı milli inkişaf strategiyasına əsaslanan dövlət siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi iqtisadi və sosial inkişafın təmin olunması ilə yanaşı, ölkənin demoqrafik inkişafına, habelə əhali artımına da müsbət təsir göstərir. Bunun təsdiqi kimi, 2003-cü ilin əvvəlindən ölkə əhalisinin sayının 20,1 faiz artaraq 2019-cu ilin martında 10 milyon nəfərə çatmasını göstərmək olar. Bu gün ölkəmizdə ötən onilliklər ərzində müşahidə olunan yüksək doğum göstəricilərinin hesabına formalaşmış əhalinin yaş strukturu əhalinin yüksək illik artım templərini təmin edir.***



**Ölkəmizdə həyata keçirilən islahatlar iqtisadi və sosial inkişafın təmin olunması ilə yanaşı, əhali artımına da müsbət təsir göstərib**

Təkcə son 15 il ərzində əhalinin təbii artım göstəricisi hər 1000 nəfərə hesabı ilə 7,9 nəfərdən 8,4, doğulanların sayı 13,9 nəfərdən 14,2 nəfərədək artıb, ölənlərin sayı isə 6 nəfərdən 5,8-ə düşüb. Bundan əlavə, səhiyyənin inkişafında əldə olunmuş nailiyyətlər hesabına 2003-2018-ci illərdə ana ölümü əmsalı (hər 100 000 nəfər doğulana) 18,5-dən 12,2, körpə ölümü əmsalı (hər 1000 nəfər doğulana) 15,5-dən 11,4-ə qədər azalıb. Bu dövrdə şəhər əhalisi 21, kənd yerlərində yaşayan əhalinin sayı 18 faiz artmışdır. Hazırda Azərbaycan Avropa və MDB ölkələri sırasında demoqrafik baxımdan cavan yaş strukturuna malik azsaylı ölkələrdən sayılır. Məlumat üçün bildirək ki, 2018-ci ildə 0-14 yaş qrupuna aid olanlar 22,4, 15-64 yaş qrupunda 70,8, 14-29 yaşlılar (gənclər) ölkə əhalisinin 23,3 faizini təşkil etmişdir. Başqa bir fakt: 2003-cü illə müqayisədə 65 yaş və yuxarı yaşda olan əhalinin sayı 20, 1990-cı illə müqayisədə isə 67 faiz artmış və bu təbəqənin əhalinin ümumi sayında xüsusi çəkisi 1990-cı ildəki 4,8, 2003-cü ildəki 6 faizdən 2018-ci ildə 6,8 faizədək yüksəlib ki, bu da öz növbəsində əhalinin tədricən ömür uzunluğunun artmasını təmin edib.

Demoqrafik təhlillər göstərir ki, ölkədə doğulanların cins strukturunda 1990-cı illərin əvvəllərindən oğlan uşaqlarının artımı müşahidə olunur və hazırda hər 100 doğulan qıza 115 oğlan düşür. 2013-cü ildə 2-ci uşaqlar arasında hər 100 qıza - 112, 3-cü uşaqlar arasında - 151, 4-cü və daha sonrakı doğulan uşaqlar arasında - 166 oğlan düşmüşdür ki, bu da ananın yaşı artdıqca doğulanların strukturunda oğlan uşaqlarının payının artmasını göstərir. Doğulanların cins nisbətinin pozulması isə ümumi əhalinin cins strukturunu dəyişir.

Qeyd edək ki, bunun qarşısının alınması üçün Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın tapşırığına əsasən, BMT-nın Əhali Fondunun dəstəyi ilə hazırlanan 2019-2022-ci illər üçün Milli Fəaliyyət Planında qeyd olunan istiqamətdə aidiyyəti dövlət orqanları, sosial tərəfdaşlar, qeyri-hökumət təşkilatları və vətəndaş cəmiyyəti ilə birgə həyata keçiriləcək kompleks tədbirlər nəzərdə tutulub. Ölkədə həyat şəraitinin yaxşılaşması, habelə ümumi ölüm səviyyəsinin aşağı düşməsi doğulan zaman gözlənilən ömür uzunluğunun artmasına da səbəb olmuşdur. Məsələn, 2003-cü ildə ölkə üzrə doğulanda gözlənilən ömür uzunluğu 72,3, o cümlədən kişilər arasında - 69,5, qadınlar arasında - 75,1 yaş olmuşsa, 2018-ci ilin nəticələrinə görə bu göstərici 75,8 (o cümlədən kişilər üçün 73,3, qadınlar üçün 78,2) yaşa çatmışdır.

### Beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyi möhkəmlənib

**Təbii ki, əhali artımının təmin edilməsi güclü və dayanıqlı innovativ iqtisadiyyatın formalaşmasına, əmək məhsuldarlığının artmasına və bununla paralel əhalinin rifahının yüksəlməsinə yönəlmiş dövlət siyasətinin mühüm nailiyyətlərindəndir.**

Ölkəmizin bu istiqamətdə əldə etdiyi nailiyyət beynəlxalq təşkilatların hazırladığı hesabatlarda da öz əksini tapır. Belə ki, ABŞ Mərkəzi Kəşfiyyat Agentliyinin (CİA) tərtib etdiyi reytinqdə Azərbaycan doğum səviyyəsinə görə 229 ölkə arasında 126-cı yerdədir. Ölkədə hər 10 min əhaliyə 145 doğum hadisəsi düşür. Reytinqə 475 doğum göstəricisinə malik Niger başçılıq edir. Sonrakı yerlərdə Anqola (427) və Uqanda (423) qərarlaşıb. Reytinqdə sonuncu yer tutan Monacoda bu göstərici 64-dür. Cənubi Qafqaz ölkələrindən Ermənistanda hər 10 min əhaliyə 119, Gürcüstanda isə 116 doğum düşür. Nəticə etibarilə Azərbaycan doğum səviyyəsinə görə Qafqazda liderdir.

Məlumat üçün onu da qeyd edək ki, əhali sakinliyinin inkişafı sahəsində siyasətin formalaşmasında 1994-cü ildə Qahirədə keçirilmiş ”Əhali və İnkişaf” üzrə beynəlxalq konfransda qəbul edilmiş fəaliyyət proqramı xüsusi yer tutur. Bu proqram dünyanın 179 ölkəsi, o cümlədən Azərbaycan tərəfindən qəbul edilib. Qahirə konfransından keçən dövr ərzində Əhali və İnkişaf üzrə Fəaliyyət Proqramının prinsiplərinin həyata keçirilməsi istiqamətində Azərbaycanda mühüm işlər görülüb və həmin prinsiplər ölkəmizdə əhali və davamlı inkişafla bağlı qəbul edilən siyasi qərarlar üçün əsas olub. Konfransda qəbul edilmiş fəaliyyət proqramının müddəaları Azərbaycan tərəfindən hazırda da uğurla həyata keçirilir.

Bu baxımdan demoqrafik vəziyyətin yaxşılaşdırılması, demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsi üçün Şərqi Avropa və MDB dövlətləri arasında ilk dəfə olaraq ölkəmizdə Prezidentin 9 dekabr 1999-cu il tarixli sərəncamı ilə ”Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyası”nın təsdiq olunması sıradan fakt deyil. Məhz həmin konsepsiya əsasında hazırlanmış və Prezident İlham Əliyevin 11 noyabr 2004-cü il tarixli sərəncamı ilə təsdiqlənən ”Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı”nın icrası nəticəsində ölkəmizdə demoqrafik vəziyyətin və əhalinin orta illik artım göstəricilərinin yaxşılaşmasına, orta ömür müddətinin uzadılmasına və müsbət miqrasiya saldosuna nail olunub, ana və uşaqların müdafiəsinin gücləndirilməsi, ailələrin inkişafı üçün əlverişli sosial-iqtisadi şəraitin yaradılması və miqrasiya proseslərinin tənzimlənməsi istiqamətində kompleks tədbirlər reallaşdırılıb.

#### Yeri gəlmişkən...

**Dövlət Statistika Komitəsinin məlumatına görə, ölkə əhalisi 2020-ci ilin 1 dekabr tarixinə olan vəziyyətə görə 10 123 4 min nəfər olub ki, bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən 0,6 faiz çoxdur. 2020-ci ilin 11 ayı ərzində ölkədə 116 454, yəni əvvəlki ilə nisbətən 9,9 faiz az uşaq doğulub. Doğulan uşaqların 53,3 faizi oğlanlar, 46,7 faizi qızlar təşkil edir.**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması

### Miqrasiya axını səngiyib

**Hər kəsə məlumdur ki, əhalinin sayının artımına miqrasiya prosesləri də ciddi şəkildə təsir edir. Son onilliklərdə müxtəlif amillərin təsiri altında Azərbaycanda miqrasiya vəziyyəti bir sıra dəyişikliklərə məruz qalıb. Yəqin ki, ötən əsrin 90-cı illərinin əvvəlində ölkədən baş verən miqrasiya axını çoxlarının yadındadır.**

Həmin illərdə ölkə vətəndaşlarımız daha çox qonşu Rusiyaya üz tuturdular. Amma sonrakı illərdə davamlı sosial-iqtisadi artım, regionların inkişafına, sahibkarlar üçün imkanların və yeni iş yerlərinin yaradılmasına, vətəndaşların sosial təminatının yaxşılaşmasına və bütövlükdə əhalinin rifahının yüksəlməsinə yönəldilən tədbirlər nəticəsində 2008-ci ildən başlayaraq miqrasiya saldosu müsbətə doğru dəyişəyə başlayıb. Təbii ki, bu ölkədə həyata keçirilən uğurlu islahatlar nəticəsində mümkün olub. Proqnoz isə onu göstərir ki, son illər müşahidə olunan demoqrafik meyillər nəzərə alınaraq Azərbaycanda əhali sayının artımı davam edəcək və 2050-ci ildə 11,8 milyon nəfərə çatacaq.

Azərbaycanda əhalinin kəmiyyət və keyfiyyət artımını təmin etmək üçün ölkənin uzunmüddətli inkişaf xəritəsi də mövcuddur. Belə ki, Prezidentin 2012-ci il 29 dekabr tarixli fərmanı ilə təsdiqlənmiş ”Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasına əsaslanaraq əhalinin kəmiyyət və keyfiyyət artımını təmin etmək üçün ölkənin uzunmüddətli inkişaf xəttinə uyğun ”Azərbaycan Respublikasında əhali sakinliyi və demoqrafik inkişaf sahəsində Dövlət Proqramı (2019-2030-cu illər)”nın layihəsi hazırlanıb.

Bu sənədin əsas xəttini ailə institutunun möhkəmləndirilməsi və ailə dəyərlərinin təbliği, ailələrə, xüsusilə gənc ailələrə sosial dəstəyin artırılması, əhalinin reproduktiv sağlamlığının möhkəmləndirilməsi, ana və uşaqların mühafizəsinin gücləndirilməsi, əhalinin ölüm və xəstələnmə səviyyəsinin daha da azaldılması, həyat şəraitinin yaxşılaşdırılması və təhlükəsizliyinin təmin edilməsi, miqrasiya proseslərinin tənzimlənməsinin təkmilləşdirilməsi, əhali sakinliyi və demoqrafiya sahəsində kadr və elmi potensialın inkişafı məsələlərini ehtiva edən bu proqramın əsas məqsədi əhalinin davamlı artımı və keyfiyyət xüsusiyyətlərinin yaxşılaşdırılması əsasında əhalinin sabit təkrar istehsalının təmin olunması təşkil edir.

***✍ Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

## BİR CÜMLƏ - BİR XƏBƏR

■ Bakı Şəhəri üzrə Təhsil İdarəsində (BŞTİ) müdir müavini vəzifələrinə yeni təyinatlar həyata keçirilib, Təhsil naziri Emin Əmrullayevin əmrinə əsasən, Xəyalə Əhmədzadə və Orxan Kərimov BŞTİ-nin müdir müavini vəzifələrinə təyin ediliblər.

■ “Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə” Nazirlər Kabinetinin qərarında edilən dəyişikliyə əsasən 6 mart saat 00:00-dan 9 mart saat 06:00-a qədər ölkədə ictimai nəqliyyatın hərəkəti dayandırılacaq.

■ Ağdərədə 2 erməni hərbçinin cəsədinin qalıqları aşkar edilərək Ermənistan tərəfinə təhvil verilib, onların kimliyini müəyyənləşdirmək üçün məhkəmə tibbi ekspertizası təyin ediləcək.

■ Ermənistan bu il ”Avroviziya” Beynəlxalq Mahnı Müsabiqəsində iştirak etməyəcək, bu barədə Ermənistan İctimai Televiziyası məlumat yayıb.

■ Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 365 yeni yoluxma faktı qeydə alınıb, 175 nəfər müalicə olunaraq sağalıb, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 3 nəfər vəfat edib.

■ Ermənistandan böyük miqrasiya gözlənilir. Bir çox sosioloqlar bu rəqəmin 200 min nəfər olacağını deyirlər, bu barədə İrəvan-Moskva videokörpüsündə iqtisad elmləri doktoru, professor Aşot Tavadyan deyib.

■ Təhsil Nazirliyi tərəfindən bu il ilk dəfə yeni tipli magistr proqramlarının təsis edilməsi barədə qərar qəbul olunub, ilk olaraq 7 yeni ixtisas sahəsi seçilib, bunu Təhsil Nazirliyinin şöbə müdiri Nicat Məmmədli bildirib.

■ 2021-ci ilin martın 5-də Türkiyə lirəsinin Azərbaycan manatına qarşı rəsmi məzənnəsi 0,2261 manat təşkil edib, bu, son iki ayda qeydə alınan ən aşağı göstəricidir.

■ Norveçin enerji şirkəti “Equinor” Azərbaycanda COVİD-19 pandemiyası zamanı səhiyyə işçiləri üçün yaradılmış rəqəmsal səhiyyə platformasının yenilənməsi üçün 25 000 ABŞ dolları məbləğində yatırım edib.

■ Zaqatalada “Agrarco” MMC-nin yeni fındıq emalı zavodu tikilir, ildə 7 min ton fındıq ləpəsi emal etmək gücündə olan fabrikdə 150 iş yeri açılacaq.

■ Çin 2021-ci il üçün müdafiə xərclərini əvvəlki illə müqayisədə 6,8 faiz artıraraq, 1,35 trilyon yuana (təxminən 209 milyard ABŞ dolları) çatdıracaq, bu, martın 5-də Pekində işə başlayan 13-cü çağırış Çin Xalq Nümayəndələri Yığıncağının dördüncü sessiyasında təqdim edilən büdcə layihəsində əksini tapıb.

■ NATO-nun qərargahında Türkiyə və Yunanıstan hərbi heyətləri arasında 11-ci görüş baş tutub, bu barədə Türkiyənin Milli Müdafiə Nazirliyindən bildirilib.

■ Səudiyyə Ərəbistanının enerji naziri şahzadə Əbdüləziz bildirib ki, krallıq xam neft hasilatını gündəlik 1 milyon barrel azaltmaqda davam edəcək, hasilatın yenidən artırılması bu ay gündəmdə deyil və nazirlik onu gələcək aylarda müzakirə edə bilər.

## Statistika



**Ölkənin ümumi təhsil müəssisələrində müəllimlərin 81,0 faizi, orta ixtisas təhsil müəssisələrində 77,9 faizi, ali təhsil müəssisələrində 54,8 faizi qadınlardır.**

Ümumi təhsil müəssisələrində təhsilalanların 46,4 faizi, orta ixtisas təhsil müəssisələrində oxuyanların 62,4 faizi, ali təhsil müəssisələrinin tələbələrinin 48,9 faizi qızlardır.

Qadınların elmin inkişafında da müstəsna rolu var. Elmi işçilərin 58,1 faizini qadınlar təşkil edir. Son 10 ildə onlardan elmlər doktoru elmi dərəcəsi olanların sayı 2,6 dəfə, fəlsəfə doktoru elmi dərəcəsi olanların sayı isə 2,3 dəfə artıb. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvlərindən 7-si, müxbir üzvlərindən isə 10-u qadındır.



# Koronavirus pandemiyası gələn ilin əvvəlində başa çata bilər

**2021-ci ildə “koronavirus dövrü” davam edəcək, lakin pandemiya 2022-ci ilin əvvəlində başa çata bilər. Bunu Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa şöbəsinin rəhbəri Hans Klüqe deyib. “2021-ci il daha bir COVID ili kimi yadda qalacaq.**

Lakin o, proqnozlaşdırılan və idarəedilən olacaq. 2020-ci il “Terra incognita”, elmi və siyasi qeyri-müəyyənlik kimi tarixə düşüb. İndi isə xəstəlik barədə daha çox bilirik. Hazırda alətlərimiz, diaqnostik proqramlarımız, vaksinimiz var. 2022-ci ilin əvvəlində pandemiya bitəcək. Lakin bu, virusun yoxa çıxacağı anlamına gəlmir”, - deyə Hans Klüqe nəşrə müsahibəsində bildirib. ÜST nümayəndəsi pandemiyanın sona çatması üçün “Avropa həmrəyliyinin” və vaksinlərin regionlar arasında ədalətli paylanmasının vacibliyini də vurğulayıb.

Qeyd edək ki, ÜST mart ayında yeni koronavirusun yayılmasını pandemiya elan edib. Pandemiyanın statistikasını aparan Worldometer saytının məlumatına əsasən, hazırda dünyada 116 milyon 275 mindən çox yoluxma və 2 milyon 582 mindən çox ölüm faktı qeydə alınıb, 91 milyon 946 min nəfər COVID-19 xəstəliyindən sağalıb. Müalicəsi davam edən 21 milyon 745 min nəfərdən 89 min 610-nun vəziyyəti ağır qiymətləndirilir.

# Su hövzələrində balıqların tükənməsinin səbəbi



**Azərbaycanın su hövzələrində balıqların tükənməsinin və yoxa çıxmasının əsas səbəbi insan amilidir. Bunu Trend-ə açıqlamasında Azərbaycan Balıqçılar İttifaqının sədri Əfqan Əliyev deyib.**

Onun sözlərinə görə, bu gün ölkənin əksər çaylarında, su kanallarında, göllərində brakonyerlik yolu ilə sintetik torlar qurulur, balıqların populyasiyasına imkan verilmir: ”Azərbaycanda balıqların populyasiyasını amansızcasına kəsirlər, bu haqda bir neçə dəfə bizim monitorinqlərimiz olub və sintetik torlara qarşı reydlər keçirmişik. Hətta bu monitorinqlər zamanı bizə hədə-qorxu gəlirlər. Ölkəmizdə sintetik torların istifadəsinə birdəfəlik qadağa qoyulsa da, təəssüf ki, hələ də qaçaqmalçılıq yolu ilə ölkəyə az sayda gətirilməkdədir.

Bu gün Azərbaycanın şah balıqlarından biri də kütüm balığıdır. Bu balıqlara o qədər tələbat var ki, hətta Amerika bazarında belə satışa çıxarılır. Ancaq çox təəssüf ki, bu balıqlar kütləvi halda ovlanır və müəmmalı şəkildə xaricə ixrac olunur. Xarici bazarlada isə onun Azərbaycandan gətirildiyi bilinmir”. Ə.Əliyev bildirib ki, Azərbaycanda balıqların populyasiyasının qarşısını alan bir nömrəli yer Şaqay kanalının dənizə tökülən hissəsində torların qurulmasıdır:

“Brakonyerlər bir gündə 3-4 ton balıq tutur və bu yol ilə balıqların kütləvi qırılmasına səbəb olurlar. Bu cür torlar əsasən cənub zonalarında quraşdırılıb, dənizə tökülən hissədə istədiyiniz qədər sintetik torlar görə bilərsiniz”.

Sədr əlavə edib ki, ən çox nərə balıq cənub zonasında, Xəzərin Lənkəran sularında olub: ”Bir vaxtlar Azərbaycanın nərələri hər yerdə tanınırdı, ancaq bu gün onların kökü kəsilmək üzrədir. Balıqlar qışlıq yuxuya gedən zaman belə onları xüsusi cihaz vasitəsi ilə ovladılar”.

Reportaj

# Fövqəladə Hallar Nazirliyinin Akademiyasında bir gün

***Cari ilin mart ayının 1-dən etibarən, Fövqəladə Hallar Nazirliyinin Akademiyasında 2021/2022-ci tədris ili üçün təhsilin bakalavriat səviyyəsinə kursant qəbulu başlanmışdır. Akademiyada "Həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi" və "Yanğın təhlükəsizliyi mühəndisliyi" ixtisasları üzrə kadr hazırlığı həyata keçirilir. Hafta.az-ın əməkdaşları gələcəyin "can qurtaran"larını yetişdirən bu təhsil ocağının qonağı oldu. Akademiyada kursantlar üçün yaradılan şərait, təhsil səviyyəsi və digər məqamları yaxından izlədik. Əvvəlcə onu deyə bilərik ki, burada daimi və dəyişən heyətin sağlamlığının qorunması üçün bütün lazımi tədbirlər görülüb.***



**Baba Salayev,**
Akademiyanın rəisi, general-mayor

## Rəislə görüş

**Akademiyanın rəisi, general-mayor Baba Salayev bizə öncə təhsil müəssisənin strukturu, vəzifələri, hazırkı fəaliyyəti və gələcək hədəfləri ilə bağlı məlumatlandırdı: "Akademiyada 4 fakültə və 6 kafedrada ştat üzrə professor-müəllim heyəti 55 nəfər, digər ali təhsil müəssisələrindən dəvət olunmuş və saathesabı dərs deyən müəllimlər 16 nəfərdir.**

Ümumən, Akademiyada elm və tədris işlərinə 3 professor, 4 elmlər doktoru, 26 fəlsəfə doktoru (elmlər namizədi) cəlb olunmuşdur. Akademiyanın magistraturasında 29 magistrant, bakalavriatın əyani şöbəsində 392 kursant, qiyabi şöbəsində isə 158 dinləyici təhsil alır. Tədris-təlim prosesinin keyfiyyətinin artırılması, maddi-texniki bazanın təkmilləşdirilməsi, həm respublikamızın, həm də xarici ölkələrin aparıcı ali təhsil müəssisəsisələri ilə əməkdaşığın genişləndirilməsi və s. istiqamətlərdə ciddi işlər həyata keçirilir.

Hazırda Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyası və Müdafiə Nazirliyinin Hərbi Akademiyası ilə əməkdaşlığımız mövcuddur. Bu günlərdə Azərbaycan Texniki Universitetinin, Daxili İşlər Nazirliyinin Polis Akademiyasının, Dövlət İqtisad Universitetinin rəsmiləri ilə görüşlərimiz nəzərdə tutulur. Onlarla təhsil və elm sahəsində, həmçinin idman və mədəni-kütləvi tədbirlərin birgə təşkilinə dair əməkdaşlıq barədə müqavilə imzalayacağıq.

Xarici ölkələrdən Rusiya, Ukrayna və Belarusun bir sıra xüsusi təyinatlı ali təhsil müəssisələri ilə əlaqələrimiz mövcuddur. Eləcə də, Türkiyə, Qazaxıstan, Özbəkistan, Gürcüstan, İngiltərə, Polşa və s. dövlətlərin təhsil müəssisələri ilə də əməkdaşlığın qurulması planlaşdırılır. Yaxın zamanlarda Fövqəladə Hallar Nazirliyinin rəhbərliyinin dəstəyi ilə Akademiyanın ərazisində Beynəlxalq Mülki Müdafiə Təşkilatı tərəfindən respublikamızda analoqu olmayan peşə hazırlığı poliqonu yaradılır. Qurğuların bir qismi artıq quraşdırılmış, bu iş üçün Rusiyadan mütəxəssislər cəlb olunmuşdur. Onlar həm avadanlıqların quraşdırılmasını, həm də əməkdaşlarımızla müvafiq kursların keçirilməsini yerinə yetirirlər. Mart ayının 7-də növbəti dəfə Rusiyadan 10 nəfərlik mütəxəssis heyəti gəlməlidir. Poliqonda qəza-xilasetmə sahəsində alınan nəzəri biliklərin təcrübi məşğələlərdə tətbiqini təmin edəcək Şturm" adlanan təlim-məşq kompleksi artıq quraşdırılmış, sualtı təlimlərin aparılması üçün böyük əhəmiyyətə malik "Baykal 1" təlim-məşq kompleksinin quraşdırılması işlərinə başlanmılmışdır.

Bundan əlavə 2019-cu ilin 3 noyabr tarixində Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin və Birləşmiş Millətlər Təşkilatının Humanitar Məsələlərin Əlaqələndirilməsi Ofisinin birgə təşkilatçılığı, Beynəlxalq Axtarış və Xilasetmə üzrə Məşvərət Qrupuna (İNSARAG) üzv olan müxtəlif ölkələrin komandaları, həmçinin NATO, Ümumdünya Səhiyyə Təşkilatı, ATƏT, "BP-Azərbaycan", "MapAction" şirkətinin nümayəndələrinin iştirakı ilə Akademiyamızda "Zəlzələ hadisələrində cavabvermə" mövzusunda beynəlxalq regional təlim keçirilmişdir".

Akademiya rəisinin sözlərinə görə, rəhbərlik etdiyi təhsil müəssisəsinə mütəmadi olaraq müharibə veteranları, Milli Məclisin deputatları, görkəmli yazıçılar, şairlər, digər tanınmış insanlar dəvət edilir və onların kursantlarla görüşləri təşkil olunur. "İndi 44 günlük Vətən Müharibəsi ilə bağlı kitabın hazırlanması üzərində iş aparırıq. Müharibənin davametmə tarixi ərzində baş vermiş hadisələr addım-addım kitabda öz əksini tapacaqdır. Kitabımız təxminən 1 ay müddətinə hazır olacaqdır".

Baba Salayev onu da qeyd etdi ki, pandemiya dövründə digər ali təhsil ocaqlarında olduğu kimi, Akademiyada tədris-təlim prosesi məsafədən (distant) formada, onlayn rejimdə təşkil edilirdi. Cari ilin 16 fevral tarixindən etibarən kursantlar ənənəvi dərslərə cəlb olunmuşdur. Hazırkı şəraitdə təhsil alan hər bir kursant diqqət və qayğı ilə əhatə olunub:

"Ümumiyyətlə müəssisəmizin bütün əməkdaşlarının, yəni həm daimi, həm də dəyişən heyətin sağlamlığı daim nəzarət altında saxlanılır. Bu işdə Akademiyanın tibb məntəqəsi aktiv fəaliyyət göstərir. Hər gün səhər və axşam vaxtlarında kursantların temperaturu ölçülür, digər tibbi prosedurlar həyata keçirilir. Kursantların səhhətində yaranan müəyyən problemlər zamanı onların qısa zaman ərzində tibb müəssisəsinə çatdırılması üçün 24 saat müddətində fasiləsiz fəaliyyət göstərən "təcili yardım" maşını nəzərdə tutulmuşdur.

Kursantların qidalanması üçün nəzərdə tutulan ərazq məhsullarının keyfiyyətinə ciddi nəzarət olunur. Alınan ərzaqlar hər il Qida Təhlükəsizliyi Agentliyində qeydiyyatdan keçirlər".

Daha sonra general-mayor B.Salayev Akademiyanın ərazisindəki İdman-Sağlamlıq Klubundan, burada keçirilən beynəlxalq yarış və tədbirlərdən də söz açdı. 28 dekabr 2019-cu ildə cənab Prezidentin şəxsən həmin kompleksin açılışında iştirak etdiyini vurğuladı:

"2 il öncə burada voleybol üzrə dünya çempionatı keçirilmişdi. Bundan başqa, kompleksdə çox sayda idman yarışları da baş tutur. Kursantlar hər səhər fiziki məşğələlərə cəlb edilir. Hava şəraiti əlverişsiz olduqda məşğələlər xüsusi ayrılmış yerlərdə təşkil olunur. Akademiyanın 30 nəfərdən ibarət orkestri də mövcuddur. Həftənin birinci və dördüncü günləri keçirilən ümumi sıra yerbəyeri tədbirində orkestr tərəfindən dövlət himninin, təntənəli keçid üçün nəzərdə tutulan marşların səsləndirilməsi, həmçinin mədəni-tamaşa tədbirləri zamanı müxtəlif tipli musiqi nümunələrinin ifa edilməsi həyata keçirilir. Akademiya marşının musiqisi də məhz orkestrin dirijoru tərəfindən bəstələnmişdir".

Sonda isə FHN Akademiyasının rəisi növbəti illərdə burada təhsil almaq istəyən abituriyentlərə səslənərək müəssisənin onların gələcəyinə verəcəyi töhfələri sadaladı:

"Akademiyaya daxil olmaq hər bir abituriyentin sərbəst seçimidir. Üstünlüklər isə ondan ibarətdir ki, Akademiyaya qəbul olan şəxslər təhsil müddətində yemək, xüsusi geyim forması və yataqxana ilə təmin olunur, aylıq 170 manat təqaüd alırlar. Akademiyanın məzunlarına seçdikləri ixtisasa uyğun "bakalavr" ali peşə-ixtisas dərəcəsi, hərbi və ya xüsusi rütbələr verilməklə Fövqəladə Hallar Nazirliyinin qurumlarında müvafiq vəzifələrə təyin edilirlər".

## Qəbul qaydaları

**Daha sonra Akademiyaya abituriyentlərin sənəd qəbulu prosesi ilə yaxlından tanış olduq. İllik qəbul planında bakalavriat səviyyəsi üzrə əyani təhsilə 100 kursantın, qiyabi təhsilə 60 dinləyicinin, magistratura səviyyəsi üzrə 15 magistrantın qəbulu planlaşdırılır.**

Bu işdə bizə Akademiyanın rəis müavini, polkovnik İlham Babaşov, Tədris şöbəsinin rəisi, polkovnik Ramiz Əsilbəyli, Yanğın təhlükəsizliyi ixtisası fənlər kafedrasının rəisi, polkovnik Kazım Kazımov və Ümumi şöbənin rəis müavini, baş leytenant İradə Dadaşova bələdçilik etdi.



İlk öncə Akademiyaya qəbul qaydaları ilə maraqlandıq. Akademiyaya qəbula namizədlər boyu 170 sm-dən az olmayan, tam orta təhsilli və ya tam orta məktəbin buraxılış sinfində oxuyan, 17 yaşı 15 sentyabr 2021-ci ilədək tamam olan, yaxud müddətli həqiqi hərbi xidmətini başa vuraraq ehtiyata buraxılmış və 23 yaşı 15 sentyabr 2021-ci ilədək tamam olmayan Azərbaycan Respublikasının vətəndaşları sırasından seçilir. Akademiyada yaradılmış sənəd qəbulu komissiyası tələb olunan sənədləri yoxlayaraq qəbul edir. Əgər hər şey qaydasındadırsa, abituriyentə xüsusi həkim ekspertiza komissiyasını keçmək üçün göndəriş verilir. Elə məlumat alarkən Gəncə şəhərindən gələn abituriyentin keçdiyi sənəd qəbulu prosesini də izləmiş olduq.

Ardınca Akademiyanın həyətində qarşılaşdığımız magistratura səviyyəsi üzrə təhsil alan magistrantlarla söhbət apardıq. Magistrant Mahmudzadə Anar deyir ki, kursant təhsilini də burada alıb. Daha sonra, iş təyinatı almadan birbaşa magistraturada təhsilini davam etdirmək qərarına gəlib.

Magistrant Emin Rəhimov da təhsil səviyyəsinin keyfiyyətindən razıdır:

"Bu həm nəzəri, həm də praktiki cəhətdən özünü göstərir. Öncə nəzəri olaraq öyrəndiyimiz anlayışları praktikada tətbiq etdikdən sonra daha da təkmilləşdirdik". Qeyd edək ki, Akademiyanın inzibati binasının birinci mərtəbəsində ixtisaslaşdırılmış laboratoriyalar mövcuddur. Elə həmin mərtəbədə Heydər Əliyev Mərkəzi və muzey də fəaliyyət göstərir.

## Muzey

**Muzeylə bağlı məlumat verərkən İradə xanım bildirdi ki, burada müəssisənin 10 il ərzindəki fəaliyyəti qısa formada öz əksini tapır:**

"Muzeyimiz 2 hissədən ibarətdir. Birinci hissə onillik tariximizi əhatə edir. Burada Akademiyanın ilk məzunlarının fotoları, gələn qonaqların hədiyyələri, fərman və sərəncamlar, ötən əsrin yanğınsöndürmə alətləri nümayiş edilir. İkinci hissədə isə Akademiyanın bayrağı, kursantların



müxtəlif sahələr üzrə geyim formaları sərgilənir. Bundan başqa, içəridə "Yaş kötüyü" guşəsi də yaradılıb ki, burada da təhsil müəssisəsini bitirənlər öz məzun olduqları ili xatirə olaraq həmin lövhəyə vurub. Hələlik burada 7 tarix həkk edilib. Muzey daxilindəki digər guşədə isə Akademiya yarandığı gündən təyin edilən rəislərin fotoları əks olunub".

## Heydər Əliyev Mərkəzi

**Təhsil müəssisəsinin daxilində yerləşən Heydər Əliyev Mərkəzinin digərlərindən fərqi ondadır ki, buradakı nümayiş etdirilən şəkillərin böyük əksəriyyəti başqa yerlərdə yoxdur.**

Eyni zamanda, bura təkcə mərkəz kimi fəaliyyət göstərmir, tarixi günlərdə tədris hissəsi kimi də istifadə olunur. Polkovnik İlham Babaşov bildirdi ki, pandemiyadan öncə Heydər Əliyev



Fondunun dəstəyi ilə mərkəzə 4 internat-məktəbinin uşaqları gətirilmişdi. Uşaqlara mərkəzlə tanışlıqla yanaşı yanğından qorunmaq üçün ilkin məlumatlar verilmişdir.

Nəzərinizə çatdıraq ki, mərkəzin daxilində Heydər Əliyevin orta təhsil attestatı və diplomunu əks etdirən çox maraqlı fotolar əks olunub.

Akademiyanın uzun və qarışıq dəhlizindən keçərkən, müsahiblərimizlə hər məqamı gözdən keçirirdik. Elə söhbət əsnasında polkovnik İlham Babaşov ötən il pandemiya ilə bağlı olaraq Akademiyaya kursant qəbulunun keçid balının 350-yə qədər enməsini də söylədi. Əlavə etdi ki, artıq bu ildən keçid balının 400-420 civarında olması gözlənilir:

"Kadr seçiminə də ciddi nəzarət edirik. Bu həm Akademiyanın, həm də ölkənin inkişafına birbaşa təsir edən amildir".

Yolumuza davam edirik... Növbəti müsahibimiz Yanğın təhlükəsizliyi ixtisas fənlər kafedrasının rəisi, polkovnik Kazım Kazımovdur. O, bizlərə kafedra haqqında ilkin məlumatları verdi. Bildirdi ki, kafedrada ali təhsilin 2 səviyyəsi üzrə dərslər həm nəzəri, həm də praktiki formada tədris olunur: bakalavriat və magistratura:

"Akademiyamızda kompüter proqramları vasitəsilə təchiz olunmuş siniflər mövcüddur. Hansı ki, burada kursantları birbaşa yanğınsöndürmə prosesini kompüterlə reallaşdırırlar. Dərs otaqlarında kursantlar qəza-xilasetmə və yanğınsöndürmə avadanlıqlarla əyani tanış olur. Onların tətbiqi isə poliqon və təlim qülləsində həyatə keçirilir".

## Avtomobil hazırlığı sinifi

**Sinif otağında avtomobilsürmə prosesi tədris olunur. Burada kursantlara KaMaz, sedan və motosiklet sürmə bacarıqları öyrədilir. İ.Babaşov deyir ki, istifadə edilən cihazlar 2 il əvvələ qədər işlək vəziyyətdə olmasa da, indi fəaliyyətləri bərpa olunub. Bura digər vətəndaşların da sürücülük təhsili alması üçün unikal ünvandır.**

Akademiyanın daxilində qarşılaşdığımız ən maraqlı otaq isə kənardan baxarkən qəfəsə bənzər fiqurlar yerləşdirilmiş sinif oldu. Burada baş verə biləcək fövqəladə vəziyyət avadanlıq və işıq effektləri ilə reallaşdırılır. Otağa xüsusi geyim ilə daxil olan kursant effektlər vasitəsilə yaradılmış maneələrin fonunda qarşıya qoyulan tapşırığı icra edirlər. Pult-idarəetmə otağından isə kameraların müşayiəti ilə kursantın hər addımı dəqiqliklə izlənilir. Bu həm də tələbənin təhlükəsizliyinə təminat verir.

Daha sonra bələdçilərin müşayiəti ilə digər sinif otaqlarını da gəzdik və dərs prosesi ilə yaxından tanış olduq. Bəzi dərslərdə müəllimlərin yaşı 65-dən yuxarı olduğu üçün karantin qaydaları nəzərə alınaraq, məsafədən təhsil icra olunurdu. Digər müəssisələrin əksinə olaraq, burada müəllimlər dərsə kənardan qoşulurdu.

## Akademiyanın tibb məntəqəsi

**Tibb xidməti mayoru Yeganə Məmmədova Akademiyadakı tibbi şəraitlə bağlı qeyd etdi ki, əməkdaşlar hər gün işə gələrkən şikayətləri soruşulur. Narahatlıq yaranıbsa, əraziyə buraxılmır.** COVID-lə bağlı sahə poliklinikaları bu işlə məşğul olurlar. Kusrantlar gəlməzdən öncə isə onlardan COVID analizi götürülür. Cavabı neqativ çıxan tələbələr tədrisə cəlb olunur.



"Akademiyada 7 tibb personalı fəaliyyət göstərir. Onlardan 3-ü həkim, digərləri isə tibb bacılarıdır.

Müəssisənin tibb mərkəzində 2 nəzarət palatası, təhlükəli xəstəliyi olanların yerləşdirilməsi üçün nəzərədə tutulmuş 1 izolyasiya otağı mövcuddur".

## Yataqxana korpusları

**Yataqxana binasının hər mərtəbəsində 50 nəfər kursanta yaşayır. Onlar hər otağa 4 nəfər şəklində yerləşdirilib.** Kursantların yataq otaqlarında dolab, çarpayı və ayrıca çəkməcələr mövcuddur. Digər otaqda isə onların əşyaları saxlanılır. Burada təhsil alanların şəxsi çantaları,



əleyhqazları yerləşdirlib. Tələbat yaranarsa, çantalarının içində kursant üçün ilk 3-5 gündə lazım olacaq hər şey - diş fırçası, təraş dəzgahı, corab, geyim, dəftər-kitab və azuqələr qoyulur.

Elə həmin mərtəbədə çay otağı da var ki, kursantlar burada mənəvi-psixoloji gərginliklərdən azad ola bilirlər. Mənəvi və psixoloji vəziyyətin yüksək olması üçün nəzərdə tutulan başqa bir otaqda isə kursantlar boş vaxtlarında stol-üstü oyunlar oynaya, qəzet, kitab oxuya, televizor izləyə bilərlər.

## İdman dərsi

**Akademiyanın həyətində fiziki hazırlıq dərsi keçən kursantlara rast gəldik. Tədrisi həyata keçirən müəllim isə Akademiyanın İdman, fiziki qəza-xilasetmə hazırlıq kafedrasının rəisi, professor, dünya çempionu Əhməd Hətəmov idi.** O bildirdi ki, kursantlara fənn proqramlarına uyğun olaraq gimnastika, yüngül atletika, əlbəyaxa döyüş, futbol və voleybol idman növlərinin tədrisi həyata keçirilir: "Dərs zamanı 25 nəfərlik qruplar 2 müəllim tərəfindən idarə olunur. Ümumən, Akademiyada idmana və kursantların fiziki hazırlığına böyük diqqət ayrılır. Akademiyanın idman komandaları Fövqaladə Hallar Nazirliyində il ərzində 12 idman növü üzrə müxtəlif yarışlarda iştirak edirlər. Belə yarışlarda iştirak etmək üçün əvvəlcə Akademiyada fakültələrarası müsabiqələr təşkil edilir və hər idman növü üzrə Akademiyanın komandası formalaşır".

## Yeməkxana

**Akademiyanın yeməkxanasında hər masada kursantlar 4 nəfər olmaqla əyləşirlər. Hazırda yeməkxanada növbəli şəkildə, ümumilikdə,**



**25 nəfər əməkdaş işləyir. Burada səhər yeməyi saat 8-ə, günorta 3-ə, axşam isə eyni qayda ilə 8-ə 15-20 dəqiqə işləmiş verilir.**

Qida menyusu ilə bağlı ətraflı məlumatı isə Akademiyanın Ərzaq xidmətinin rəisi kapitan Elmir Baqiyev verdi: "Kursantların və əməkdaşların qidalanması üçün həftənin menyusu öncədən tərtib edilir. Başlıca məqsəd odur ki, gündəlik yeməklərin hər biri həftəboyu təkrarlanmasın. Səhər yeməyində südlü siyıq, yağ, pendir, çay və cem verilib. Günorta üçün çobansalatı, qovurma vermeşil, kotlet, kompot, meyvə şirəsi, axşam isə toyuq əti ilə souz, yağ, pendir, çay nəzərdə tutulub. Menyunun kalori dəyərinə gəldikdə isə orta hesabla, birgünlük kalori 3700-dən 4100-ə qədərdir. Yeməkxanaya gələn məhsullar Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi tərəfindən ciddi nəzarət edilir. Elə Akademiyanın daxilində də qidaların yoxlanışı müvafiq qaydada həyata keçirilir".

## Qəza-xilasetmə fənninin tədrisi

**Akademiaynın ərazisində gəzərkən, bu maraqlı dərsin tədrisinə şahid olma imkanımız oldu. Fənnin tədrisi zamanı kursantlar yanğın-**



**söndürənlər və xilasedicilərin təlimi üçün nəzərdə tutulan xüsusi qüllədən xilasetmə əməliyyatlarını həyata keçirirdilər.**

3-cü kurs kursantı Məmmədli Hilal prosesi uğurla icra edib, sonrakı təəssüratlarını bizlərlə paylaşdı. Bildirdi ki, 2-ci dəfə icra etməsinə baxmayaraq, heç bir qorxu və həyəcan keçirmədi.

Əli Hacıyev də prosesi uğurla başa vuran 3-cü kurs kursantıdır. O isə yoldaşından fərqli olaraq, bunu ilk dəfə idi icra edirdi. Təəssüratları isə belə oldu: "2-ci mərtəbədən xilasetmə kəndirləri vasitəsilə düşdüm. İlk dəfə idi ki, bunu sərbəst edirdim. İçimdə bir az qorxu və həyəcan var idi. Buna baxmayaraq çətin gəlmədi".

## Analoqu olmayan poliqon

**Akademiya ərazisində ölkəmizdə ilk dəfə, MDB ölkələri ərazisində isə yalnız Rusiyanın paytaxtı Moskva şəhərində olan poliqon qurulub. Burada tikinti işləri hazırda da davam etməkdədir. Əraziyə daha bir neçə qurğuların yerləşdirilməsi nəzərdə tutulub.** Təlim zonasının növbəti tədris ili üçün hazır olması planlaşdırılır. Poliqon ötən ilin mart ayında quraşdırılsa da, pandemiya səbəbi ilə burada təlim və tədrislər bir müddət təxirə salınıb.

Tədris şöbəsinin rəisi polkovnik Ramiz Əsilbəyli yeni qurulmuş avadanlıqla bağlı danışarkən bunları söylədi:

"Keçən həftə Akademiyanın müəllim heyətindən olan 21 nəfər əməkdaşına Moskva şəhərin-



dən gələn mütəxəssislər qrupu təlim keçib, sertifikatlaşdırdılar. Bundan sonra isə proses tədrisə daxil edilərək, kursant və dinləyicilərə də aşılanacaq. Təlim-məşq kompleksi "Şturm" adlanır. Burada qapı-pəncərələrin, dəmir barmaqlıqların, dam örtüklərinin kəsilib-açılmasını həyata keçirmək mümkündür. Qurğunun üçüncü mərtəbəsində "quyu" trenajoru yerləşdirilib. Bu trenajorda 10 metrə qədər dərinliyində quyuya düşmüş zərərçəkənin xilas edilməsi kursantlara öyrədilir".

## Təlim avtomobilləri

**Akademiyada təlim üçün nəzərdə tutulan xüsusi avtomobillərdən də istifadə edilir. Polkovnik Kazım Kazımovun sözlərinə görə, tədris prosesində həmin avtomobillər kəsilir, doğranılır, lazım gəldikdə, hətta yandırılır:**

"Bura hazırda yeni bir avtomobil trenajoru da gətirilib ki, o, dəyişilmiş hissələrlə təmin edilir. Məşğələ zamanı avtomobilin işarələnmiş hissələrini yandırmaq, doğramaq, şüşələrini sındırmaq, kəsmək mümkündür. Burada qəza şəraitində zərərçəkənlərin avtomobildən çıxarılması təlimlərinin keçilməsi nəzərdə tutulur".

Akademiyanın ucsuz-bucaqsız ərazisi, möhtəşəm binası və maraqlı dərs prosesləri ilə tanış olduqdan sonra onu deyə bilərik ki, bura tək görünüşü ilə diqqətimizi çəkmədi.

**Təhsil müəssisəsində ölkəmizin görkəmli nümayəndələri öz bilik və bacarıqlarını gənc xilasedicilərlə paylaşırlar. Belə müəllimlərdən biri də Hərbi kafedranın rəisi polkovnik Aprel Babayevdir. Reportajımız əsnasında onunla**



**da müsahibəyə imkan tapdıq. Aprel Babayev Əfqanıstan müharibəsinin və Birinci Qarabağ Müharibəsinin iştirakçısı olub:**

"Əfqanıstan müharibəsinə xüsusi təyinatlı olaraq qatılmışam. Burada da xüsusi təyinatlılarda xidmət etmişəm. Həyatda önəm verdiyim məfhum Vətən sevgisidir. Bu hissi gənclərə aşılamaq üçün əlimdən gələni edirəm. Vəzifəyə yeni təyin edilmişəm. Buna baxmayaraq, qısa zamanda 22 dəfə kursant heyəti ilə görüşlərim olub. Bəzi məqamlar var ki, nəzəriyyədə də, ədəbiyyatda da olmur. Onu canlı yaşayan insan daha yaxşı tərənnüm edə bilir. Gələcəkdə də bu prosesi davam etdirməyi də istəyirik".

Ölkəmizin inkişafına böyük töhfələr verən Akademiyanın peşəkar professor-müəllim heyəti ilə tanış olduq. Burada savadlı kadrların yetişdirilməsi üçün bütün imkanlar yaradılıb. Gələcəkdə yolu FHN Akademiyasından düşəcək bütün abituriyentlərə uğurlar arzulayırıq.

*✍ Banu Hüseynli*

## Müsahib

# Niyə bizim qadın nazirlərimiz olmasın?!



**Novella Cəfəroğlu,**
Dilarə Əliyeva adına Qadın Hüquqlarının Müdafiəsi İctimai Birliyinin sədri

**Sivil cəmiyyətin "qızıl kapitalı" olan insanın azad, hüquqları tanınan, təminatlı bir vətəndaşa çevrilməsi prosesində qadınların yeri və rolu xüsusilə dəyərləndirilir. Cəmiyyətdə qadınların rolu məhz azad və demokratik quruluşlu qadın cəmiyyətinin yaranması ilə rəvanlaşa, gözəlləşə bilər. Bu gün vətəndaş olaraq azad qadının, azad düşüncəyə sahiblənən cəmiyyətin qurulmasında, möhkəmlənməsində rolu, ictimai nəzarət funksiyası araşdırılmaqla mövcud reallıqlara əsasən onun fəaliyyətinə yenidən baxılması zərurəti yaranır. Əslində bu, dünyaya olan bir yeni baxışdır. Müasir dünyanın qadınını, Azərbaycan qadınını cəmiyyətdə aparıcı fiqur kimi önə gətirməkdə səbəb nədir? "Həftə içi"nə müsahibə verən Dilarə Əliyeva adına Qadın Hüquqlarının Müdafiəsi İctimai Birliyinin sədri Novella Cəfəroğlu qadının cəmiyyətdəki rolu barədə çox incə məqamlara diqqət çəkib.**

***- Novella xanım, Azərbycanın lider xanımlarından birisiniz və bu günlərdə yubileyinizi qeyd etdiniz, təbrik edirik. Bir hüquq müdafiəçisi, gözəl xanım olaraq necə hesab edirsiniz - 8 Mart Qadınlar Günü Azərbaycan qadınının qarşısında hansı yeni imkanları açıb?***

- Mən bu ilin bütün bayramlarına, elə öz doğum günümə Vətən Müharibəsində qazandığımız qələbədən baxıram. Bu il bütün qadınların bayramı və aldığı hədiyyələr bizim qələbəmizdir. 8 Mart Qadınlar Bayramı, Novruz Bayramı və digər xoş günlərimiz bizim bu qürur günümüzlə gözəlləşdi. Məhz qələbəmiz bizi bu bayramlara gətirdi. Qələbə başımızı uca etdi, uşaqlarımızın üzünə dik baxa bildik, üzümüz güldü. Ona görə də bu il 8 Mart, yubileyim, Novruz Bayramı - hamısı mənim üçün qələbəmizin bayramımdır. Məsələn, qorxurdum ki, Qarabağı görmədən öləcəyəm. Eləcə də bu il hər birimiz - cavanlı-qocalı pandemiya ilə əlaqədar çox ağır günlər keçirdik. Bu gərginlyə baxmayaraq, torpaqların azadlığını, qələbəni görmək, yaşadığımız pandemiya həyəcanının, ağrısını da azaltdı. Bu yaşımda o qələbəni görmək mənim üçün çox vacib idi. Ona görə də yubileylər də, 8 Mart da, Novruz bayramı da Böyük Qələbənin təsiri altında qarşılanır və belə də olmalıdır. Bu il bizim üçün Qələbə sevincimizdən üstün heç nə ol bilməz.

***- 8 Mart Qadınlar Günü, təbii ki, qadına verilən üstünlüklərin inkişaf etdirilməsi və önə çıxarılması baxımından simvolik təqvim kimi götürülür. Bu, Azərbaycan qadınının qazana biləcəyi və qazandığı uğurların ölçüsü və qadının hansı gücə sahib olduğu barədə, sanki bir bir hesabat günüdür...***

- Mən hər bir addımımızı müharibə ilə bağlayıram. Bu müharbədə bizim qadınların nə qədər dəyanətli, nə qədər qürurlu olduğunu gördüm. Müharibə başlayan kimi o analarımız, bacılarımız oğullarını, ərlərini müharibəyə göndrəndən sonra bizm qadınlar hamısı bir nəfər kimi təşkilatlanıb öz əsgərinə dayaq oldular. Biz bunu gördük. Həmin ərəfələr bizim təşkilata da çoxlu zəng olurdu. Hər kəs əsgər gedən ailənin güzəranı ilə, bəlkə bir ehtiyacı olar deyə, yaxından maraqlanırdı. Kiminsə ailəsinə maddi yardım lazım oldurdusa, hamı 5-3 manat yığıb onlara dəstək verirdi. Mən demirəm ki, müharibə vaxtı şəraiti çətin olan bütün ailələrə əlimiz çatdı. Sözsüz ki, biz hamının köməyinə gedə bilməzdik, amma bu qadınların təşkilatlanıb müharibədə ön cəbhəyə sovqatlar aparmaları, uşaqlara isti yemək, isti paltaq aparmaları qadınlarımızın çətin vəziyyətlərdə birləşmələri çox qürurverici idi. Deməli, biz birləşəndə çox şeylərə qadir oluruq. Gəncəyə, Bərdəyə erməni raketi atılan zaman nə qədər ağır olsa da, qadınların o hadisələrdə birbirinə dayaq durmasını gördükcə onlarla qürur duydum. Qadınlar doğrudan da çox şeyə qadirdilər. Ona görə də qadınlara hörmət, tək qadın bayramlarında deyil, həmişə olmalıdır.

***- Novella xanım, Azərbaycan qadınının ölkənin ictimai-siyasi proseslərində rolu neçə görünür, hansı yönləndirici təsirə malikdir?***

- Qadının ailəyə təsiri nədirsə, cəmiyyətdə də göstərdiyi təsir odur. Bizim nə qədər ziyalı, iqtisadiyyatı, həkimliyi, mühəndisliyi, rəssamlığı, musiqini, mədəniyyəti, siyasəti bilən qadınlarımmız var. Bir sözlə, hər sahədə özünün işini bilən gözəl mütəxəssis qadınlarımız var. İstərdim, elə bu qələbə ilindən sonra bizim qadınlara yüksək idarəçilikdə təmsil olunmaları üçün imkan yaratsınlar. Niyə bizim qadın nazirlərimiz olmasın? Məsələn, Gürcüstanda müdafiə naziri qadındır. Mən demirəm, bizim də Müdafiə nazirimiz qadın olsun, amma ola da bilər. O nazir döyüşən əsgərə öz övladları kimi, bir ana kimi münasibət bəsləyəcək. Yaxud səhiyyə naziri niyə qadın olmasın? İcra başçıları niyə qadın olmasın? Ümumiyyətlə, icra başçılarının səlahiyyətlərini nazirliklərə verib, bələdiyyələrin fəaliyyətini artırardım. Burada da qadınların rolu artırılsın. Qadınlar öz ailəsini əlində olan "o 5 manat"la necə idarə edirsə, öz işinə də eləcə yanaşacaq. Kişi gətirən o 5 manatı həm toya, həm cehizə, həm də evin ərzağının alınması üçün necə bölürsə, həmin idarədə də bunu edəcək. Qadının ailəyə nəzarəti çərçivəsində oğlanın oğlan yeri var, qızın qız yeri var, kişinin kişi yeri var Bunun hamısını qadın idarə edir. Kişilər deməsin biz edirik. Kişilər sağ olsunlar. Allah onları bizim başımızın üstündən əskik eləməsin, amma qadın başqadır. Qadın yaranandan idarəedicidir. Amma bunu başa düşmək istəmirlər...

> *Bu il 8 Mart, yubleyim, Novruz Bayramı, hamısı mənim üçün qələbəmizin bayramıdır*

***- Bəlkə başa düşürlər, amma qadının öndə dayanmasını istəmirlər...***

- Tam olaraq belə də söyləyə bilmərik. Bu gün bizim Milli Məclisin spikeri qadındır və başqa qadın diplomatlarımız var. Hesab edirəm ki, zamanla idarəçilikdə də qadına üstünlük veriləcək.

***- Belə deyilir ki, güclü vətəndaş cəmiyyətinin qurulmasında qadın lokomotivdir. Qadının ən çətin situasiyalarda önə çıxması hansı zərurətdən doğur?***

- Belə bir söz var: deyir, yanan evə birinci qadın özünü atar. Qadın orada qalan balasını çıxarmaq istəyir. Ən çətin bir durumda qadının özünü fəda etməsi hissi çox güclüdür. Ona görə də deyirlər ki, qadın lokomativdir. Ailəni ən çətin situasiyalardan qadın çıxarır. Elə hallar olur ki, ən güclü kişi ekstremal vəziyyətdə çətin vəziyyətdə qalır. Məsələn, kişi işsiz olanda qadın onun qürurunu qırmadan evi elə idarə edir ki, kişi dirçəlir və yenidən hər şeyə nail olur. Çox şey qadından asılıdır və buna görə də qadınlara başqa bir hörmətlə yanaşılmalıdır.

***- Başqa ölkələrlə müqayisədə Azərbaycan cəmiyyətində, ailəsində, iş yerlərində qadına hörmət, münasibət hansı səviyyədədir?***

- Qadına münasibətin necə olması onun özündən də asılıdır. Məsələn, mənim 80 yaşım var, indiyə qədər özümə bir dənə də söz gətirməmişəm. Olub ey, mitinqlərdə vurublar da, sürüyüblər də Siz də bilirsiniz ki, bu ayrı məsələdir. Cəmiyyətin qadına yanaşması onun özündən də çox asılıdır. Məsələn, 80 yaşımda mənim qazandığım mükafat neçə illər insanlardan yığdığım, qazandığım məhəbbət, hörmət oldu. 80 illiyimdə bu sevgi göründü. Tək bu il yox, hər il doğum günümlə bağlı minlərlə təbriklər alıram. Deməli bu, qadının evdə, cəmiyyətdə, dostlarının yanında özünü necə təqdim etməsindən asılıdır. Bilirsiniz, qadını o zaman sevirlər ki, o sevgi verir. Qadının özü insanlara sevgi verirsə, qadını sevəcəklər. Məhəbbət hər şeyi həll edir. Qadında o varsa, ona hörmət olacaq.

***- Vətəndaş cəmiyyətinin missioneri olaraq necə hesab edirsiniz? Sizcə, rayonlarda, ailədə, bəzən iş yerlərində qadın hüquqlarının pozulması, zorakılığa məruz qoyulması hələ də cəmiyyətin qadına "süpürgə" kimi baxması ilə bağlıdır, yoxsa başqa səbəbləri var?***

- Cəmiyyətdə qadına qarşı laqeydlik yaranıb. Düşünürəm ki, müharibədən sonra hər şey dəyişəcək. İndi insanlarla işləmək üçün qeyri-hökumət təşkilatlarına, siyasi partiyalara şərait yaratmaq lazımdır. O təşkilatlarda olan qadınlar özlərini nə qədər çox göstərəcəklərsə, cəmiyyətin də onlara qarşı münasibəti dəyişəcək.

***- Novella xanım, bu gün yetişən gənc nəsildə hansı üstünükləri görürsünüz? Qızlarımız daha çox nələrə diqqət etməlidir?***

- Bu müharibədə gənclərimizə valeh oldum. Eləcə də bu pandemiya dövründə gənclərin özünü aparması məni ruhlandırdı. Gənclərin bu ağır günlərdə birləşib insanlara, xüsusən də qocalara, aztəminatlı ailələrə ərzaq yardımları etdiyinin şahidi oldum. Gənclər bizə müraciət edirdilər ki, pul yığaq, evdə oturan işsiz adamlara ərzaq aparaq. Bir də görürdün ki, kisələrlə un, makaron, toyuq məhsullarını maşınlara yükləyib aparırdılar. Onlar müharibə vaxtı da bunu elədilər. Biz belə gənclərimizə fikir verməliyik, gəncləri işlətmək lazımdır. Gördüyü işlərə görə onları tərifləmək, qabağa çəkmək lazımdır. İndi Prezident Aparatında çalışan elə gənc kadrlar var ki, müharibə vaxtı insanların rəğbətini qazandılar. Baxın, Hikmət Hacıyev brilyant kimi parladı, Ədalət Vəliyev sanballı işlər apardı, bizim Ombudsman Səbinə xanım, Prezident Aparatında Samir Nuriyev, Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Anar və komandada olan digər gənclər çox fəal oldular.

Gənc qızlarımız öz üzərlərində işləməlidir. Heç bir iş nəticəsiz qalmır. Yenə də deyirəm: mən 50 yaşımda universitetdən çıxıb hüquq müdafiəsi ilə məşğul oldum. Təvazökarlıqdan uzaq olsa da, bu işimlə də məşhur oldum. Ona görə də deyirəm: hər qadın, hər gənc qız öz qarşısına məqsəd qoysa, ona çatacaq. Qabağında tank da dursa, o tankın üzərindən aşıb-keçəcək. Bizlər o rus tanklarının üzərinə necə getdik ey, elə. 20 Yanvarda qadınlar əllərində bayraq Salyan kazarmasına necə getdilərsə, bu mübarizədə də qorxmasınlar, qoyduqları məqsədlərə doğru getsinlər.

*✍ Tahirə Qafarlı*




# Hədiyyəlik dibçək güllərinə maraq artıb

**Qarşıdan 8 Mart Beynəlxalq Qadınlar Bayramı gəlir. Demək olar ki, bütün dünyada bu günə xüsusi hazırlıq görülür. Həmin gün xanımların üzünü güldürəcək ən dəyərli və populyar hədiyyə isə gül-çiçəkdir. İndi gül hədiyyə etmənin də ənənəsi bir qədər dəyişib. Əvvəllər daha çox qırmızı qızılgüllərə üstünlük verilirdisə, hazırda bu sıraya dibçək gülləri də əlavə edilib. Uzunömürlü olmasını da nəzərə alsaq, deyə bilərik ki, bu gün belə çiçəklərin hədiyyəsi dəb halını alıb.**

Bu güllər isə ölkəmizə, adətən, xaricdən, xüsusən də Hollandiyadan gətirilir. Bəs görəsən, bayramöncəsi xaricdən gətirilən dibçək güllərinin qiymətində artım baş verib? Əvvəlki və indiki qiymətlər? Bu güllərə tələbat hansı səviyyədədir?

Hafta.az-ın əməkdaşı yaranmış suallara aydınlıq gətirmək üçün üz tutdu paytaxtın məşhur gül dükanlarına.

İlk öncə bir məqamı diqqətinizə çatdıraq ki, baş çəkdiyimiz əksər gül mağazalarında xüsusi canlanma mövcud idi. Hər zaman səliqə-sahmanı ilə seçilən bu satış məntəqələrində hərəkətlilik sezilirdi. Satıcılar bayramla bağlı sifarişlərə hazırlaşdıqlarını, bu səbəbdən bir qədər qarışıqlıq yarandığını söylədilər.



**■ İlk baş çəkdiyimiz ünvan məşhur "Ağ çiçəyim" gül dükanı oldu. Mağazanın əməkdaşı Elgün bəyin sözlərinə görə, hazırda heç bir güldə qiymət artımı yoxdur:**

"Dibçək güllərindən tələbat daha çox orxideyalaradır. Onun da qiyməti əvvəl necə idisə, indi də elədir. Bundan başqa, "Liliya", "Spatifiliyum", "Qartenziya" kimi dibçək gülləri də çox sevilir. Qiymətlər güllərin növündən asılı olaraq 15 manatdan, 180 manata qədər dəyişir".

Bundan başqa, satıcı onu da əlavə etdi ki, hazırda bayramla bağlı sifarişlər artıb. 8 Mart günü isə satışların bir qədər də çoxalacağı düşünülür.

**■ Daxil olduğumuz digər mağaza isə "Fantaziya" gül dükanı oldu. Rəngarəng çiçəklərin ətri insanı məst edən məkanın satıcısı Eltac bəy deyir ki, hazırda ən çox satılan güllər arasında Hollandiyadan gətirilən dibçək gülləri, xüsusən də orxideyalardır".** "Uzun müddət ömrü olan bu güllərə maraq çox böyükdür. Yaxşı qulluq edilsə, bir neçə il yaşaya bilirlər. Dibçək güllərinin ən ucuzu 10 manat, Ən bahası isə 450 manatlıq ağaclardır. Ağaclara tələbat elə də çox yoxdur, ancaq digərləri yaxşı alınır".

**■ "Gül dünyası" dükanında da müştəri sıxlığı var idi. İmkan tapıb, buranın əməkdaşı ilə qısa söhbət apardıq.** O söylədi ki, hazırda müştərilər daha çox, qızılgüllərə və çobanyastığı gülü buketinə üstünlük verirlər, ancaq dibçək gülləri də elə də az alınmır: "Bayramöncəsi sifarişlər artıb, başımız qarışıqdır. Satışlardan narazı deyiləm. Müştərilər dibçək güllərindən daha çox xaricdən gətirilən orxideyalara, liliyaya, spatifiliyuma və qartenziyaya üstünlük verirlər. Qiymətlər də hər bir çiçəyin növünə, dükana gəliş qiymətinə və ölçüsünə görə dəyişir. Mağazada 10 manatdan 50 manata qədər hər cür çiçək növü var".

Qeyd edək ki, hazırda ölkəmiz dibçək güllərinə olan tələbatı xaricdən ixrac etməklə ödəyir. Bir zamanlar Azərbaycan bu çiçəkləri yetişdirən dövlətlərdən biri idi. Onda nəinki daxili tələbat ödənir, hətta xaricə də idxal həyata keçirilirdi. İndi isə satışda mövcud olan əksər çiçək növləri Hollandiya, Ekvador və Türkiyədən gətirilir. Kəsilmiş güllərin ixracına gəldikdə isə hazırda dünya üzrə Hollandiya, Ekvador, Zimbabve, Kenya ön sıralardadır.

*✍ Banu*



**■ "Bizim qanunvericiliyə əsasən, işsiz şəxs işi və qazancı olmayan iş axtaran, işə başlamağa hazır olan, əmək qabiliyyəti yaşında olan əmək qabiliyyətli şəxslər sayılır. I qrup və digər əlillik qrupları heç də əmək qabiliyyətsiz sayılmır".**

Bunu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin onlayn "Sosial saat" verilişində Dövlət Məşğulluq Agentliyinin sədri Mustafa Abbasbəyli bildirib. Onun sözlərinə görə, yalnız əmək zəmanəti olmayan şəxslər əmək qabiliyyətsiz sayılır və onlar məşğulluq tədbirlərinə cəlb oluna bilmirlər: "Əgər hər hansı vətəndaşın əlilliklə bağlı sənədində onun əmək zəmanəti ilə bağlı əmək qabiliyyətsiz qeyd olunubsa, həmin şəxs Tibbi Sosial Ekspertiza Komissiyalarına müraciət edib müvafiq düzəlişlər apara bilər".



**■ Ağır yaralanan və müalicə üçün "YAŞAT" Fondu tərəfindən Türkiyəyə göndərilən 4 qazi müalicə olunaraq Vətənə geri dönüb.**

Fonddan hafta.az-a verilən məlumata görə, qazilərimiz Mehtixanov Məhəmməd Biroğlan oğlu, Abdullayev Xəyal Yaşar oğlu, Eminov Aqil Vahid oğlu, Əzməmmədov Şəhriyar Şahməmməd oğlunun Türkiyədəki müalicə proseduru artıq uğurla yekunlaşıb. Onların qarşıdakı aylarda müalicəsi üçün nəzərdə tutulan dərman vasitələri də Fond tərəfindən təmin edilib. Ölkəmizdəki həkimlərin rəyi nəzərə alınaraq hazırda daha 20 qazimizin müvafiq müayinə, müalicə və reabilitasiya prosesi Türkiyədə davam etdirilir. "YAŞAT" Fondu qazilərimizin müalicəsini tam yekunlaşana qədər nəzarətdə saxlayacaq.



**■ Türkiyənin şərqində hərbi helikopterin qəzaya uğraması qəfil pisləşən hava şəraiti üzündən baş verib. Bu barədə ölkənin milli müdafiə naziri Hulusi Akar bildirib.**

"İlkin məlumatlara və şahidlərin ifadələrinə görə, helikopterin qəzaya uğraması qəfil pisləşən hava şəraitinə görə baş verib. Hadisənin dəqiq səbəbi ətraflı araşdırmadan sonra müəyyənləşdiriləcək", - Akar əlavə edib. Nazir qeyd edib ki, faciənin ilk dəqiqələrindən etibarən müvafiq dövlət idarələri axtarış-xilasetmə işləri, yaralananların və həlak olanların nəşinin evakuasiyası üçün bütün qüvvələri səfərbər edib. Qeyd edək ki, Türkiyənin şərqində hərbi helikopterin qəzaya uğraması nəticəsində 11 hərbçi həlak olub, ikisi yaralanıb.



**■ İstanbul Ədliyyə Sarayında azərbaycanlı iş adamı Mübariz Mənsimovun barəsində olan cinayət işi üzrə məhkəmə prosesi keçirilib. Keçirilən prosesdə hökm oxunub.**

Məhkəmənin hökmünə əsasən, M. Mənsimov 5 il müddətinə azadlıqdan məhrum edilib. Lakin o, məhkəmə nəzarəti altında şərti azadlığa buraxılıb. M. Mənsimovun ölkədən çıxışına da qadağa qoyulub. Qeyd edək ki, M. Mənsimov ötən ilin mart ayında FETÖ işi üzrə aparılan istintaq çərçivəsində həbs olunub. Xatırladaq ki, bir neçə gün əvvəl İstanbul Cümhuriyyət Prokurorluğu M. Mənsimovun məhkəmə nəzarəti altında şərti azadlığa buraxılması ilə bağlı vəsatət verib.



**■ İranda sərnişin təyyarəsinin qaçırılmasının qarşısı alınıb. Məlumatı İran İnqilab Keşikçiləri Korpusunun (SEPAH) komandanlığı yayıb.**

Qeyd olunub ki, dünən saat 22:10-da naməlum şəxs "Iran AiR" şirkətinin Ənvazdan Məşhədə uçan Lokker100 təyyarəsini Fars körfəzi ölkələrindən birinə qaçırmağa cəhd edib.

SEPAH-ın müvafiq bölməsi təyyarəni qaçırmaqda şübhəli bilinən şəxsi saxlayıb. Nəticədə təyyarə İsfahan şəhərindəki hava imanına endirilib. Saxlanılan şəxsin kimliyi açıqlanmır. Hadisə nəticəsində xəsarət alan olmayıb.



**■ Vətən müharibəsində işğaldan azad olunmuş torpaqlarımızda sarsıdıcı məğlubiyyətə uğramış Ermənistan ordusunun atıb qaçdığı silah-sursatın aşkar edilməsi istiqamətində tədbirlər davam etdirilir.**

Şuşa Rayon Polis Şöbəsinin əməkdaşları aidiyyəti qurumların təmsilçiləri ilə birlikdə partladıcı vasitələrin, silah-sursatın aşkar edilməsi və istifadəyə yararsız olanların zərərsizləşdirilməsi məqsədi ilə xidməti ərazidə müntəzəm reydlər aparırlar. Növbəti belə tədbir zamanı RPŞ əməkdaşları tərəfindən erməni hərbçilərin ataraq qaçdığı 1 ədəd tüfəng, 6 müxtəlif növ qumbara, 13 qumbaraatan və minaatan mərmiləri, 5500 ədəd 7,62 çaplı patron, pulemyot və avtomat silahlar üçün güllə ilə dolu 13 sandıq və digər döyüş sursatları aşkar edilərək götürülüb.

## Sorğu

# "Azərbaycan Türkiyədə hər kəsin ürəyindədir"

***Ötən həftələrdə Türkiyədə idim. Fərqli bölgələrində oldum, amma hər yerdə özümə və təmsil etdiyim Azərbaycana qarşı vahid münasibət - sevgi gördüm. İnsanlar fərqli düşünürlər, amma Azərbaycanın adı çəkiləndə fikirlər birləşir. Hamı deyir ki, qardaşıq, bir millətin iki dövlətidir Türkiyə ilə Azərbaycan. Sadəcə, son vaxtlar sosial yaşam tərzində bir az fərqlər mövcuddur. Bu da müvəqqətidir, çünki Azərbaycan dünyaya inteqrasiyasını dərinləşdirdikcə, orda da sosiallaşma güclənəcək. Hər halda, ölkələrimizin yerli adət-ənənələrini, sosial və ən azından coğrafi məlumatlarını daha çox paylaşmalıyıq - təbliğatı artırmalıyıq. Fərqli fikir sahibi olan İzmir sakinləri ilə ayaqüstü söhbət etdim. Nə düşünürlər, birlikdə baxaq:***



**İzmirdə həmsöhbətim olan gənc xanım Meriç Avçı:**

- Ölkəmizdə insanlar milli adət-ənənələrinə, mədəniyyətlərinə çox bağlıdırlar. İzmirlilər daha səmimi, daha istiqanlıdır. Səbəbi də budur ki, başqa şəhərlərimizin əhalisi daha çox köç qəbul edərək, qarışıq vəziyyətə düşüb. İzmirdə isə qəribədir, gələnlər özləri yerli əhaliyə qarışır. Fikir versəniz görərsiniz ki, məhəllələrdə adamlar bir-birinə salam verir, üzlərində hər zaman təbəssüm olur. Saat neçədə olur-olsun, küçədə rahatlıqla gəzib-dolaşırıq, istirahət edə bilirik.

***- Türkiyənin başqa yerləri ilə müqayisədə, İzmirdə hicablı qadınları az gördüm, bu nəylə bağlıdır?***

- Çox sadə, izmirlilər din məsələsində daha azaddırlar. Yəni heç kim kimsəyə "Niyə başın açırdır və ya niyə hican taxmısan?", - demir. Kim necə istəyir, elə də geyinsin. Məsələn, mənə başıaçıq olmaq daha rahatdır, bir başqasına hicab taxmaq rahatlıq verirsə, qoy taxsın. Məncə, bu, içində olduğumuz cəmiyyətin baxışlarını təcəssüm etdirməlidir. Biz azad cəmiyyətdə yaşayırıq.

***- Türkiyədə qadınların çoxu siqaret çəkir, bu da cəmiyyətin azadlığından irəli gəlir?***

- Bizdə qadınlar çox, hətta kişilərdən daha çox çəkirlər. Səbəbini dəqiq bilmərəm. Məncə, qadınların işi ağırdır, yeqin, siqaret çəkməklə o yüklərdən xilas olurlar. Necə ki, kişilər alkoqol içirlər və bu zaman özlərini başqa aləmdə hiss edirlər. Yəqin, qadınlar da belə bir hiss yaşayırlar...

***- Türk gənclərin sosial yaşamı necədir, razısınız həyatınızdan?***

- Belə deyim: İzmirdə, İstanbulda və digər iri şəhərlərdə gənclərin sosial həyatı iç Anadoluda yaşayan gənclərinki ilə müqayisədə çox zəngindir. İndi pandemiya dövrüdür, amma əvvəllər işimiz, işdən sonra əyləncə məkanlarımız, parklarımız-bulvarımız vardı. İzmirin coğrafi mövqeyi eladir ki, hər yerə yaxındır. Məsələn, çimərliyə getmək istəyirəmsə, yarım saata ordayam. Sadəcə iş saatı bir az uzundur, bu da istirahətimizə vaxt ayırmağa imkan vermir. Üstəlik, iş saatının uzun olmasına baxmayaraq, maaşlarımız da aşağıdır - 3 min lirə. Burada kirayə mənzillər çox bahadır. İzmirdə bir otaqlı ən ucuz mənzilin kirayəhaqqı min lirədən yüksəkdir. Deməli, aldığım maaşın yarısı ancaq kirayəyə gedir. Axı yeməiçmək, geyim-kecim, kommunal ödənişlər, digər xərclər var.

***- Niyə öz eviniz yoxdur, axı izmirli olduğunuzu dediniz?***

- İzmirdə doğulmuşam. Valideynlərim evi satıb başqa şəhərə köçdülər. Mənsə getmədim, İzmirdən ayrıla bilmirəm, qaldım. Ali təhsil almışam, işləyirəm və rahat yaşayıram.

***- Ölkədən kənarda oldunuzmu?***

- Çox təəssüf. Anam Bolqarıstan türküdür, nə vaxtsa oradan gəlib Türkiyəyə. İlk olaraq Bolqarıstana getmək istərdim. Azərbaycana da gəlmək istəyirəm, amma nə edim ki, fürsətim olmayıb.

***- Fürsət olmayıb, niyə?***

- İlyarımdır pandemiyadır, başqa səbəb yoxdur. Azərbaycan Türkiyədə hər kəsin ürəyindədir, axı qardaş ölkəyik. Amma Azərbaycanla bağlı Türkiyə gəncləri arasında bir az məlumatsızlıq var. Burada bir neçə telekanalınız yayımlanır, amma təbliğat zəifdir. Bu səbəbdən də insanların, xüsusilə də gənclərin bildikləri "Azərbaycan qardaş ölkədir, bir millətik"dən o tərəfə keçmir. Bizdə bir deyim var: çox yaxınıq, amma heç yaxın deyilik.

Bunun üçün məsələn, İzmirdəki təşkilatlar, cəmiyyətlər vaxtaşırı ictimaiyyət üçün tədbirlər keçirməli, hətta şənliklər düzənləməlidir ki, istənilən sıradan insanlar ora gedib baxa və Azərbaycanla bağlı məlumatlarını artıra bilsinlər...

**İzmir sakini, iki övlad atası Çengiz Uçuk:**

- Mən bayağı müasirləşməyə qarşıyam. Xüsusilə də İzmirdə insanların davranışlarında, geyim-kecimlərində aşırı sərbəst olmalarını qəbul edə bilmirəm. Hansı ki, bizim mədəniyyətə görə qadın çox açıq geyinə bilməz, burada geyinirlər. Yenə də bizim adətlərə görə, kişilər ailələrinə bağlı olmalı, hörmətini qorumalıdır, amma İzmirdə bir qism bunu etmir. Yəni demək istəyirəm ki, İzmirdə həyat və yaşam daha çox sosiallaşıb.

***- Rahat yaşamaq üçün yaxşı qazanmaq lazımdır. Siz nə qədər qazana bilirsiniz?***

- Açığı deyim, bir az maddi sıxıntımız var. Düzdür, dövlət imkan daxilində yardım edir, amma yenə də bir ailə üçün çətindir. İndi pandemiyadır, karantin yasaqları var, əvvəllər vəziyyətimiz daha yaxşı idi.

***- Dövlət yardım edir dediniz, nə verir, hansı yardımlardır?***

- Aztəminatlı insanlara qida və başqa zəruri hər nə desən verilir. İndi kimlərsə dövlətin etdiklərini görməzdən gəlir, bu sadəcə günahdır.

***- Baxıram, gecə saatında hələ də piştaxtanın arxasındasınız, heç alıcı da yoxdur. Günlük qazancınız nə qədər olur?***

- Təxminən, 100-150 lirə, ayda isə aşağı-yuxarı 3500 lirə. Bundan da rüsum verirəm, başqa xərclərim olur. Hər ay özümə təmiz 2500 lirə qalır ki, bununla da 4 baş ailə dolanırıq. Allah insana ağıl da verir, sıxıntı da, rahatlıq da. Pandemiyadan öncə ayda 4000-4500 lirə qoyardım cibimə, bu gün az qazanıram, dolanışığım ağırlaşıb, amma yenə də şükür edirəm. Bir vaxtlar daha çox ruzini verən Allahın yenə də verəcəyinə inanıram. İnsan az da qazanar, çox da, əsas odur ki, cibinə görə addım atmağı bacarsın. 10 min lirəni böyüyə də versən, bir gündə xərcləyəcək, uşağa da. Ona görə də insanı uşaq vaxtından elə tərbiyə etmək lazımdır ki, çətin şəraitdə aza qane olub yaşamağı bacarsın. Təəssüf ki, günümüzdə bir çox hallarda böyük-kiçik münasibətləri qarışıb. Bu da ifrat müasirləşmənin nəticəsidir.

***- Uşaqlar böyükdür?***

- İki qızım var - məktəblidirlər. Böyük qızım 5-ci sinifdə oxuyur, izmirli məktəblilər arasında keçirilmiş bilik yarışında birinci oldu. Əminəm ki, Türkiyəni təmsil edəcək qızım. Özüm vaxtilə təhsil ala bilməmişəm. Ona görə də bütün günü işləyib ruzimi qazanıram ki, qızlarım korluq çəkməsinlər, savadlı, dünyagörüşlü - xeyirli vətəndaş olaraq böyüsünlər.

***- Azərbaycan haqda nə bilirsiniz?***

- Azərbaycanı qardaş ölkə, qardaş xalq kimi tanıyıram. Getməmişəm, amma Allah nəsib edərsə mütləq yolumu salacam Bakıya.

***- Bayaq söhbət zamanı kürd olduğunuzu dediniz, maraqlıdır, necə bir Türkiyə görmək istəyirsiniz?***

- Bu ölkədə bir çox xalqın nümayəndəsi yaşayır. Türk, kürd, laz, çərkəz, ərəb - hamımız vahid ailəyik. Başımızı səcdəyə qoyanda hamımız eyni şəkildə La ilahə illəllah Muhammədun Rəsulullah deyirik. Ona görə də milli və məzhəb ayrılığı qoymadan bərabər, qardaş olaraq yaşamalıyıq. Mən nə qədər ki, türk bayrağı altında yaşayıram, bu ölkənin hər qarışı vətənimdir. Nə qədər ki, bu bayrağın altında yaşayıram, kimsə məni millətimə görə fərqləndirə bilməz. Biz Türkiyə vətəndaşıyıq, vəssalam.

*✍ Vüsal Tağıbəyli*

## SUAL-CAVAB

### *Güzəştli mənzili kimlər əldə edə bilər?*

- Güzəştlə mənzil əldə etmək hüququ olan şəxslərin kateqoriyaları Azərbaycan Respublikası Prezidentinin 16.11.2016-cı il tarixli 1113 nömrəli Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası" ilə müəyyən edilir. Həmin kateqoriyalardan biri yaşı 35-dən çox olmayan gənc ailə üzvləridir. Bu kateqoriyaya şəhid ailəsinin üzvü (əri/arvadı, övladları), Milli Qəhrəman (özü, əri/arvadı, övladları), məcburi köçkün və ya ona bərabər tutulan şəxs, ən azı 3 il dövlət qulluğunda qulluq edən, o cümlədən dövlət qulluğunun xüsusi növündə xidmət keçən şəxs, ən azı 3 il dövlət ümumi təhsil müəssisəsində müəllim işləyən şəxs, fəlsəfə doktoru elmi dərəcəsi olan şəxs və idman sahəsində xüsusi xidmətləri olan şəxs (fəxri bədən tərbiyəsi və idman xadimi, ölkə miqyaslı yarışların qalibi (I yer), beynəlxalq miqyaslı yarışların mükafatçısı (I, II və ya III yer) daxildir.

Digər kateqoriya isə yaşından və ailə vəziyyətindən asılı olmayaraq digər şəxslərdir ki, bu kateqoriyaya da elmlər doktoru elmi dərəcəsi olan şəxs, ən azı 15 il dövlət qulluğunda qulluq edən, o cümlədən dövlət qulluğunun xüsusi növündə xidmət keçən şəxs, ən azı 3 il hərbi xidmətdə olan (müddətli həqiqi hərbi xidmətdə olan hərbi qulluqçulardan başqa), həmçinin ehtiyata və istefaya buraxılmış Azərbaycan Respublikasının hərbi qulluqçuları ("Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 41.0.6-cı, 41.0.7-ci, 41.0.8-ci, 41.0.10-cu, 42.0.3-cü, 42.0.4-cü və 42.0.5-ci maddələrində nəzərdə tutulan hallarda ehtiyata və ya istefaya buraxılmış hərbi qulluqçular istisna olmaqla), ən azı 3 il daxili işlər orqanlarında xidmət keçən xüsusi rütbəsi olan şəxs, ən azı 3 il elmi vəzifədə işləyən elmi işçilər (müraciətləri qəbul edilən elmi işçilərin çalışdığı elmi müəssisə və təşkilatların siyahısı) və ən azı 15 il dövlət ümumi təhsil müəssisəsində müəllim işləyən şəxslər daxildir.

### *Əmək haqqı fonduna daxil edilməyən gəlirlərdən İcbari Tibbi sığorta haqqları tutulurmu?*

- "Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 15-10.1.2-ci maddəsinə əsasən muzdla işləyən fiziki şəxslər, hərbi qulluqçular (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla), Azərbaycan Respublikasının Milli Məclisi və ya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən vəzifəyə təyin olunan şəxslər, seçkili ödənişli vəzifə tutan şəxslər üzrə sığortalı tərəfindən işçinin əməkhaqqının 8000 manatadək olan hissəsindən 2 faiz, 8000 manatdan yuxarı olan hissəsindən 0,5 faiz, sığortaolunan tərəfindən əməkhaqqının 8000 manatadək olan hissəsindən 2 faiz, 8000 manatdan yuxarı olan hissəsindən 0,5 faiz məbləğində icbari tibbi sığorta üzrə sığorta haqları hesablanır. Bu maddədə nəzərdə tutulan əməkhaqqının 8000 manatadək hissəsindən ödənilən sığorta haqqının məbləğinə neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən sahələr üzrə 2022-ci il yanvarın 1-dək 50 faiz güzəşt tətbiq edilir. Əmək Məcəlləsinin 157-ci maddəsinin müddəalarına görə əmək haqqının tərkibinə aylıq tarif (vəzifə) maaşı, əlavələr və mükafatlar daxildir. Tarif (vəzifə) maaşı işin mürəkkəbliyi, əməyin gərginliyi və işçinin ixtisas səviyyəsinə görə müəyyən edilən əmək haqqının əsas hissəsidir. Əmək haqqına əlavə əmək şəraiti ilə əlaqədar əvəz ödəmək və ya həvəsləndirmək məqsədi ilə işçinin tarif (vəzifə) maaşına, əmək haqqına müəyyən edilən əlavə ödəncdir.

Mükafat əməyin kəmiyyət və keyfiyyətinin yüksəldilməsinə işçinin maddi marağının artırılması məqsədi ilə əmək haqqı sistemində nəzərdə tutulan qaydada və formada verilən həvəsləndirici pul vəsaitidir. Qeyd olunanlara əsasən icbari tibbi sığorta üzrə sığorta haqları işçinin əməkhaqqından, yəni işəgötürən tərəfindən işçiyə pul və ya natura formasında ödənilən gündəlik və ya aylıq məbləğ, habelə ona edilən əlavələrin, mükafatların və digər ödənclərin məcmusundan ibarət məbləğdən hesablanır. Əmək haqqının tərkibinə daxil olmayan ödənişlər icbari tibbi sığorta üzrə sığorta haqqına cəlb olunan gəlirlərə aid edilmir.

### *Bələdiyyə ərazisindəki mehmanxana, sanatoriya-kurort və turizm obyektləri bələdiyyəyə ödənişi necə etməlidirlər?*

- Bələdiyyə ərazisində mehmanxana, sanatoriya-kurort və turizm xidmətləri göstərən şəxslərdən alınan ödəniş burada qalan hər bir şəxs üçün sutkada 1,1 manatdan çox olmamaqla həmin xidmətləri göstərən şəxslər tərəfindən hesablanır və hesablanmış məbləğ növbəti ayın 5-dək müvafiq bələdiyyənin büdcəsinə ödənilir.

*✍ Sevinc*

# Ötən ay 70 diplomun tanınmasından imtina edilib

**Fevral ayı üçün təhsil sənədlərinin tanınması üzrə müraciətlərin statistikası açıqlanıb. Təhsildə Keyfiyyət Təminatı Agentliyindən hafta.az-a verilən xəbərə görə, fevral ayında ötən ay ortalama baxılan 274 müraciətin 204-ü barədə müsbət qərar verilərək müvafiq şəhadətnamələr təqdim edilib, 70 müraciət barədə isə mənfi qərar qəbul olunub.**

Tədris dili üzrə bilik səviyyəsinin qənaətbəxş olmaması səbəbi ilə 45, tədris yükünü mənimsəmək üçün təhsil aldığı ölkənin ərazisində kifayət qədər olmaması səbəbi ilə 23, akkreditasiyası olmayan ali təhsil müəssisəsində təhsil alması səbəbi ilə 1 və qeyri-ənənəvi təhsil formasında təhsil alması səbəbi ilə 1 nəfərin müraciəti mənfi qərarla yekunlaşıb. İxtisas seçimlərində iqtisadiyyat üzrə 47, hüquqşünaslıq üzrə 41, tibb üzrə 32, maliyyə üzrə 27, menecment üzrə 20, biznesin idarə edilməsi üzrə 18, mühəndislik üzrə 14, beynəlxalq münasibətlər üzrə 14, mühasibat uçotu üzrə 8, turizm üzrə 7, kompüter elmləri üzrə 5, tarix üzrə 3, riyaziyyat üzrə 3 və digər ixtisaslar üzrə 35 nəfər müraciətçi qeydə alınıb.

# Ağacların dibi asfaltdan təmizlənib



***Bakının Nizami rayonu, Heydər Əliyev prospekti 106A ünvanında ağacların dibinin asfaltlanması ilə bağlı Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinə daxil olan şikayəti xidmətin əməkdaşları araşdırıblar.***

Xidmətin rəsmisi Vaqif Cavadov bildirib ki, araşdırma zamanı 6 saylı Regional Yol İstismar İdarəsi tərəfindən səkinin asfaltlanması zamanı oradakı ağacların nəzərə alınmadığı və onların ətrafının tamamilə asfaltlandığı məlum olub. Ağacların dibinin asfaltdan təmizlənməsi və onlara aqrotexniki xidmətin göstərilməsi məqsədilə 6 saylı Yol İstismar İdarəsinə məcburi göstəriş verilib. V.Cavadov qeyd edib ki, hazırda Yol İstismar İdarəsinin əməkdaşları tərəfindən ağacların dibi təmizlənir və onlara aqrotexniki xidmət göstərilir.

# Marağın azaldığı 8 Mart açıqcaları

**Bir neçə gün sonra 8 Mart - Beynəlxalq Qadınlar bayramıdır. Son illər bu ərəfələrdə xanımlara bahalı hədiyyələr, çiçəklər alınır, onları lüks restoranlarda şam yeməyinə çıxarırlar. Əvvəllər isə Qadınlar günü bir qədər fərqli şəkildə qeyd olunardı. Elə bu yerdə deyiblər ki, "Haradadır o köhnə bayramlar?". Xanımlara içində səmimi, xoş fikirlər ən əsası isə ürəkdən gələn gözəl sözlər yazılmış açıqcalar hədiyyə edilərdi.**




Belə hədiyyəni, adətən, övladlar anasına, şagirdlər müəlliminə, sevən sevdiyinə bağışlayardı... İndiki dövrdə bahalı ətir, yaxud gül-çiçək yerinə açıqca almış xanımın bu təbrik formasına sevinib-sevinməyəcəyi də məsələnin ayrı tərəfidir. Bəs görəsən, hazırda açıqcaya tələbat varmı? Açıqcanın qiyməti nə qədərdir? Əsasən hansı yaş qrupları maraqlanır? Hafta.az-ın əməkdaşı mövzu ilə bağlı araşdırma apardı.

Əvvəlcə onu deyə bilərik ki, şəhərin müxtəlif yerlərində hədiyyəlik əşyalar, kitab-dəftər satılan çoxsaylı mağazaları dolaşdıq. Onların əksəriyyətinə "Satışda açıqca var?" sualı veriləndə satıcılar çaş-baş qaldılar. Çox yerdən belə bir oxşar cavab aldıq: "İndi "otkrıtka" alan qalıb?".

■ **Ardınca ofis və məktəb ləvazimatları satılan mağazaya daxil olduq.** Buradan bizə bildirildi ki, satışda cəmi 3-4 açıqca qalıb. O qədər də çox soruşulan məhsul deyil, qiyməti isə 60 qəpikdir.

■ **Daha sonra, hədiyyəlik əşyalar, oyuncaqlar satılan mağazanın yolunu tutduq.** Buradan da bizə satışda açıqca olduğu, qiymətin isə 50 qəpik-1 manat arasında dəyişildiyi deyildi. Bütün açıqcalar üstünə yeni il təbriki yazılmış formada idi: "Olmağına var, amma alan, ya da soruşan yoxdur. Hər dəfə tozunu silib, təkrar öz yerinə qoyuram". Mağazaları dolaşdıqdan sonra belə qənaətə gəldik ki, indi açıqcalara tələbat elə də yüksək deyil. Elə buna görə satıcıların çoxu onu soruşmağımıza belə təəccübləndi.

■ **Daha sonra, açıqcaların populyar təbrik növü olduğu zamanlardan bu günə müəllim işləyən Sənəm xanımdan indi bu təbrik növündən istifadə edilib-edilmədiyini öyrəndik.** Uzun illər müəllimliklə məşğul olan xanım deyir ki, əvvəllər hər bayram şagirdlər bizə açıqca bağışlayardı: "Elə biz özümüz də müəllimlərimizə hədiyyə etmişik. Bu maraqlı təbrik növü sovet dövründə və 1995-ci ilə qədər aktual olub. Ondan sonra özüm də tək-tük şagirdimdən belə təbrik almışam. Verilən açıqcaların, demək olar ki, hamısında, adətən, bu sözlər yazılardı: "Əziz müəllimim, Sizi 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə ürəkdən təbrik edirəm. Sizə uzun ömür, cansağlığı, işlərinizdə müvəffəqiyyətlər arzulayıram". Fikrimcə, o vaxt edilən təbriklər daha ürəkdən və səmimi idi. İndi hamı birbirinə hədiyyə alır. Əl əməyi, göz nuru olan hədiyyələr, içinə saf duyğular yazılan açıqcalar insana ayrı xoşbəxtlik verirdi".

Sonra isə bir məqamı diqqətinizə çatdırmaq istərdim. Xanımlara alacağınız hədiyyənin mahiyyətindən asılı olmayaraq, onlara vaxt ayırıb özlərini dəyərli hiss etdirmək günündən asılı olmayaraq, hər bir xanımı xoşbəxt edəcəkdir.

8 Mart Beynəlxalq Qadınlar Gününün mahiyyətinə və tarixinə gəlincə, bu bayram qadınların kişilərlə bərabərhüquqlu olmaq yolunda verdiyi mübarizənin başlandığı tarixdən götürülür. Belə ki, 8 mart 1857-ci ildə ABŞ-ın Nyu-York şəhərində geyim sektorunda çalışan yüzlərlə qadın aşağı maaşa, uzun çalışma saatlarına, eyni zamanda pis iş şəraitinə etiraz olaraq tətil edibler. Bu hadisələrdən 100 il sonra Danimarkanın Kopenhagen şəhərində keçirilən Qadın Sosialist İnternasionalının qurultayında 1957-ci ilin 8 martında Nyu-Yorkda başlayan mübarizənin, qadın hüquqlarının genişləndirilməsi və qadın həmrəyliyinin simvolu olaraq hər il qadın günü olaraq qeyd olunması qərarlaşdırılıb. Daha sonra Birləşmiş Millətlər Təşkilatı 1975-ci ilin 8 martını ilk dəfə Beynəlxalq Qadınlar Günü olaraq keçirdi. İki il sonra isə BMT-nin ümumi qurultayında 8 mart Qadın Hüquqları və Beynəlxalq Sülh Günü olaraq qəbul edildi. Beynəlxalq Qadınlar Günü, eyni zamanda, qadın hüquqlarının genişləndirilməsinin və bugünkü qadının daha azad olmasının tarixi səbəblərinin xatırlanması üçün də xüsusi gündür.

*✍ Banu*

## Mədəniyyət

# Mürgüləyən küləyin oyandığı Yel çərşənbəsi

***Bir neçə gün sonra Novruz Bayramının üçüncü - Yel çərşənbəsi qeyd ediləcək. İlaxır çərşənbələrdən yel və torpaq arasında insanlarda fərqli düşüncələr mövcuddur. Bəzi bölgələrimizdə Torpaq çərşənbəsi yeldən öncə qeyd olunur. Bu gün bütün evlərdə süfrə qurulur, qohum-əqrəba bir araya gəlir. İnsanlar küləyin onlara xoş təəssüratlar gətirəcəyinə inanırlar. Hafta.az-ın əməkdaşı həmin günün inam və adətləri haqqında məlumat almaq üçün mütəxəssisə müraciət etdi. AMEA Folklor İnstitutu Mifologiya şöbəsinin əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru, dosent İlhamə Qasımova fikirlərini bizlərlə bölüşdü.***



Bildirdi ki, bugünün adlandırılması bölgələrə görə dəyişir. Bəzən Yel çərşənbəsini "Yelli çərşənbə", "Küləkli çərşənbə", "Külək oyadan çərşənbə", "Üçüncü çərşənbə", qərb bölgələrimizdə isə, "Torpaq çərşənbəsi", "Ölü çərşənbə", "Qara bayram" kimi də adlandırırlar:

"Adətən, bu çərşənbədə 1-2 gün öncədən dünyasını dəyişən doğmaları ziyarət edirlər. Məzar daşları, qəbirlərin ətrafı çirkabdan təmizlənir, səliqəyə salınır. İnanclara görə, Yel çərşənbəsində Novruz şənliklərində icra olunan "Yel baba" şənlikləri əcdadlarımızın "Yel tanrısı"na etiqadı ilə bağlıdır.

Burada, hətta yel şəxsləndirilib, onun şərəfinə nəğmələr söylənib:

**A Yel baba, Yel baba,**
**Tez gəl, baba, gəl, baba.**
**Sovur bizim xırmanı,**
**Atına ver samanı.**
**Dən dağılıb dağ olsun,**
**Yel babamız sağ olsun.**
**A Yel baba, Yel baba,**
**Qurban sənə, gəl baba.**

Elə bu sətirlərdən də aydın görünür ki, insanlar yelin gəlişi ilə paklığın, təmizliyin gəlməsinə inanır. Rayon yerlərində buğdanın, dənin təmizlənməsi mərasimi də var ki, bu da küləklə bağlıdır. Bayaq da dediyim kimi, bəzi bölgələrimizdə üçüncü çərşənbə Torpaq çərşənbəsi kimi qeyd olunur. Buna səbəb isə Yel çərşənbəsində suyun, odun, torpağın oyanışı, onların canlanması düşüncəsidir. Əgər mövzuya bu nöqteyi-nəzərdən baxsaq, bu üçündən sonra, dördüncü çərşənbə Yel çərşənbəsi olmalıdır".

> *"Çərşənbələr bəzi insanlar üçün ağır gün hesab olunur. Belə insanlar vacib işlərini bu gün görməkdən çəkinərlər*



**İlhamə Qəsəbova,**
AMEA Folklor İnstitutu Mifologiya şöbəsinin əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru, dosent

Mütəxəssis Yel çərşənbəsinin maraqlı adətlərini sadalayarkən, bir məqamı xüsusi vurğuladı. Sən demə, bu günə "Yu at çərşənbəsi" deyənlər də var: "Bu çərşənbədə mürgüləyən külək oyanır, aləmi dolaşıb, suyu, odu, torpağı oyadır. İnsana və həyata ritm verir. Ona görə də bəzi bölgələrdə, hətta bu günə təmizləmə mənasına gələn "Yu at yeli" də deyirlər. Həmin gün insanlar həm özləri yuyunar, həm də ev-eşiklərini təmizləyərlər. Evdə nə varsa çölə çıxarılar, təmizlənər, bayram yeli əşyalara toxunub, onları təmizə çıxarar. "El gətirdi, yel apardı" misalı da məhz həmin düşüncələrin təzahürüdür. Belə günlərdə ocaq qalansa da, qərb bölgəsində bu adət yoxdur. Daha çox qara bayram ab-havasında keçən Yel çərşənbəsi günü həmin evlərdə mütləq şəkildə qazan qaynadılır. Kimin büdcəsi nəyə çatırsa, ona uyğun süfrə qurulur. Vəfat edən doğmalarını ziyarətə gedənlər bayram nemətlərindən həmin məzarlara qoyarlar. Müasir dövrdə hər şey yenilənsə də, qədim adətlərimiz öz aktuallığını qorumağı bacarıb".

Sonda elmi işçi Novruzun gəlişindən xəbər verən bu günlərin niyə məhz çərşənbə günü qeyd edilməsi məsələsinə də toxundu:

"İlaxır çərşənbələr fevral ayının 21-dən martın 21-nə qədər boz aya düşür. 21 mart ilin təhvili günü kimi götürülərək, ondan 1 həftə önceki gün, yəni boz aya qədər hər çərşənbə xüsusi qeyd olunur. Folklorşünas Şakir Albalıyevin yazılarına görə, çərşənbələr bəzi insanlar üçün ağır gün hesab olunur. Belə insanlar vacib işlərini bu gün görməkdən çəkinərlər". Qeyd edək ki, ölkəmizdə sonuncu - Torpaq çərşənbəsi martın 16-da qeyd olunacaq. Bundan başqa, bu il üçün yaz fəslinin Azərbaycana gəlişi, yəni Novruz Bayramı martın 20-si Bakı vaxtılə saat 13:37-yə təsadüf edəcək. İnanclar əbəs deyildir. Qəlblərdəki bütün çirkabların Çərşənbə yeli ilə arındırılması diləyi ilə Bayramınız Mübarək!

*✍ Banu*

## HƏFTƏ REYTİNQ

### Həftənin MƏRHUMU



Tanınmış tarixçi alim Dilavər Əzimli vəfat edib. Koronavirusa yoluxan alim komada idi. O, dünən axşam saatlarında dünyasını dəyişib. Xatırladaq ki, 62 yaşlı D. Əzimli ilin əvvəlindən koronavirusa yoluxaraq FHN-nin Zığdakı modul tipli xəstəxanasında müalicə alırdı. O, süni tənəffüs aparatına qoşulmuşdu.

### Həftənin TƏLƏBİ



Çeçenistan rəhbəri Ramzan Kadırov ABŞ-ın Federal Təhqiqatlar Bürosundan 250 min dollar nağd pul tələb edib. Kadırov bu barədə öz teleqram kanalında yazıb. Kadırov ABŞ xüsusi xidmət orqanının haqqında informasiya əvəzində 250 min dollar pul mükafatı təklif etdiyi rusiyalı iş adamı Yevgeniy Priqojinin onu Qroznıda ziyarət etdiyini bildirib. "Bu cür səxavətli mükafatı almaq ağılsızlıq olardı. Vətəndaş borcunu yerinə yetirmək hissi ilə vicdan əzabı çəkmədən layiq görülən mükafatı almağa hazıram", - deyə Kadırov istehzalı şəkildə bildirib.

### Həftənin SƏFƏRİ



Katoliklərin ruhani lideri və Vatikan rəhbəri Papa Fransisk Bağdada səfər edib. Onun təyyarəsi Bağdad Aeroportuna eniş edib. Bu barədə "Washington Post" nəşri məlumat verib. Hava limanında Papanı İraq Respublikasının Baş naziri Mustafa Əl-Kazimi qarşılayıb.

### Həftənin ELVİS PRESLİSİ



Xalq artisti Emin Ağalarov Rusiyanın Birinci kanalında yayımlanan "Toç-v-toç" (Birə bir) proqramının xüsusi qonağı olub. Müğənni-bəstəkar efirdə əfsanəvi ulduz Elvis Preslini yamsılayıb, onun obrazında səhnəyə çıxaraq "My way" mahnısını səsləndirib. O, sözügedən görüntülərini instaqramda paylaşaraq "Yəqin ki, bu, uzun müddətdən sonra ən çətin və həyəcanverici çıxışlardan biri idi", - deyib.

### Həftənin TƏNQİDİ



Türkiyə Superliqasının 27-ci turunda "Ankaragücü" klubuna 1:2 hesabı ilə uduzan "Qalatasaray"ın baş məşqçisi Fatih Terim hakimlərdən narazılığını bildirib. Təcrübəli çalışdırıcı VAR hakimi funksiyasını icra edən Cüneyt Çakırı tənqid edib: "Beşiktaş"la matçda top Damaqoy Vidanın əlinə dəysə də, penalti olmadı. Həmin vaxt Cüneyt Çakır vəziyyəti bizə elə anlatdı ki, az qala, ondan üzr istəyəcəkdik. İndi özü VAR hakimi idi, amma heç bir müdaxilə etmədi".

### Həftənin İLKİ



ABŞ-da bir zooparkda doqquz meymuna koronavirus vaksini vurulub. Sözügedən heyvanlar dünyada insanlardan başqa peyvənd olunan ilk canlılardır. Kaliforniyada yerləşən bir zooparkda bir qorilla, üç oranqutan və beş bonobo cinsi meymun vaksinasiyadan keçib və onlara heyvanlar üçün inkişaf etdirilən COVID-19 vaksini tətbiq olunub.

### Həftənin PEYVƏND OLUNANI

Müsavat Partiyasının başqanı Arif Hacılı da Covid-19 əleyhinə peyvənd olunub. Bu barədə feyzbukda yazan partiya sədri bildirib ki, ilk peyvəndini 19 saylı şəhər poliklinikasında vurdurub: "Peyvəndin heç bir fəsadı yoxdur. Ümumiyyətlə, Azərbaycanda yanvar ayının 18-dən bu günə qədər 100 mindən çox vətəndaşımız peyvənd olunsa da, şükürlər olsun ki, hələlik heç kəsdə peyvəndə görə ciddi fəsadların olması barədə təsdiqlənmiş məlumata rast gəlməmişəm. Peyvənd təhlükəli deyil. Özümüzü və ətrafımızdakıları qorumaq üçün peyvənd olunmağımız vacibdir".

*✍ Azad Əliyev*

# Peyvənddən sonra qidalanma rejimi



**Peyvənd vurdurandan sonra qidalanmada zülal, mineral, yağ və vitaminlər vəhdət təşkil etməlidir. Həkimlər xüsusi olaraq vurğulayırlar ki, həmin prosedurdan sonra qida rasionuna daxil edilən ərzaqlar düzgün seçilməlidir.**

Əsas olaraq müntəzəm və düzgün şəkildə su qəbul edilməlidir. Suya zəncəfil, nanə, yaşıl alma, darçın və iki-üç dilim limon əlavə edərək içilməsi immun sistemi üçün çox faydalıdır. Həkim-terapevtin dediyinə görə, bu, həmçinin mədə-bağırsaq sisteminə də müsbət təsir edir. Bundan başqa həkimlər qeyd edirlər ki, pandemiya dövründə immun sistemini gücləndirən qidalara daha çox üstünlük verilməlidir.

Həkim-diyetoloq Ləman Süleymanova deyib: "Çoxlu tərəvəzlər qəbul edilməli və onunla yanaşı vitaminlərlə zəngin və mövsümə uyğun olaraq meyvələrdən istifadə edilməsi məqsədəuyğundur. Ət məhsulları, toyuq, balıq məhsulları və göyərtilər mütləq şəkildə rasiona daxil edilməli, xüsusilə tərkibində S vitamini olan qidalara üstünlük verilməlidir. D vitamini olan qidaların - göbələk, kərə yağı, yumurta, avokado və s. də qəbulu məsləhətdir".

Kişmiş, kəvər, göy və qırmızı soğan, sarımsaq, brokkoli və gül kələmi də vitaminlərlə zəngin qidalardır. Peyvənd olunanların xüsusilə spirtli içkilərdən uzaq olması, fast-fud, şirniyyat və un məmulatlarından mümkün qədər az istifadə etməsi tövsiyə olunur.

"Yağlı, qızardılmış və qurudulmuş qida məhsullarının qəbulunu məhdudlaşdırmaq lazımdır. Qaynadılmış, buxarda bişirilmiş, kabab formasında olan məhsullardan rahat şəkildə istifadə etmək olar. Normal yuxu rejimi və stresdən uzaq olmaq da peyvənddən sonra yaxşı təsir göstərir", - deyə həkim-diyetoloq bildirib.

Zülalların kifayət qədər qəbulu da əsas amillərdəndir. Bu baxımdan balıq, pendir, lobya, mərcimək, noxud və çərəzlərin yeyilməsi məsləhətdir. Orqanizmdə xəstəliklərin yaranmaması üçün gündəlik qidalanma normasını gözləmək və ona əməl etmək lazımdır.

# Azərbaycanda ilk dəfə jest dili lüğətinin veb-səhifəsi hazırlanır

**Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin (RİİB) elan etdiyi "Sosial layihələr" müsabiqəsinin qaliblərindən olan "Doğma jest dili" layihəsi çərçivəsində "NAR"ın maliyyə dəstəyi ilə veb-sayt hazırlanacaq. Belə ki, veb səhifədə jestlərin şəkilləri, videoları, eyni zamanda jestlərin göstərilməsi ilə bağlı izahedici mətnlər yerləşdiriləcək.**




Veb saytın digər üstünlükləri insanlar üçün daha əlçatan olması və sözlərin asanlıqla axtarışını aparmağa imkan verməsidir. Lüğətdə 3000-ə yaxın sözün jest dilində tərcüməsi göstəriləcək. Qeyd edək ki, "Doğma jest dili" lüğətinin elektron variantı eşitmə və nitq məhdudiyyəti olanlar və onların yaxınları, həmçinin bu qrup insanlarla işləyən surdotərcüməçi, surdoloq, müəllim və loqopedlər üçün əvəzedilməz vasait olacaq. Bundan başqa, saytın mobil versiyası da hazırlanacaq.

"Karlara Dəstək" İB-nin sədri Kamran Abasovun sözlərinə görə, jest lüğətinin elmi-metodik cəhətdən düzgünlüyünü təmin etmək məqsədilə bir neçə qurumun mütəxəssislərindən ibarət işçi qrup yaradılıb. "Doğma jest dili" lüğətinin elektron formada olması ilə eşitmə məhdudiyyəti olan uşaqların valideynləri və onların yaxınları daha çox söz toplusu əldə edə biləcək və ünsiyyət zamanı çətinlikdən uzaq olacaqlar. Veb səhifədə sözlərin şəkillər və videolarla izahı ilə yanaşı, jest dilinin mimika ilə ifadə edilən işarələrini də görmək mümkün olacaq. Layihənin ərsəyə gəlməsi üçün göstərdiyi dəstəyə görə RİİB-ə və "Nar"a təşəkkür edirik".

Xatırladaq ki, "Karlara Dəstək" İctimai Birliyi tərəfindən müsabiqəyə təqdim edilən "Doğma jest dili" layihəsinin əsas məqsədi eşitmə və nitq qabiliyyəti məhdud olan insanların əmək fəaliyyəti ilə məşğul olmaq qabiliyyətinin artırılması və ətrafdakı insanlarla ünsiyyətin təşkil olunmasını nəzərdə tutan jest dili lüğətinin hazırlanmasıdır. Qeyd edək ki, "Nar" bundan əvvəl eşitmə və nitq məhdudiyyəti olan insanların müxtəlif peşələrə yiyələnməsi üçün paytaxtda və regionlarda "Təlim məktəbi" təşkil edib, eyni zamanda işarət dilində olan sözlərin jestlərlə izahını verən "Səssiz dünyaya körpü" adlı kitabı nəşr etdirib.

## GÜNÜN FOTOSU




Türkiyədə 75 yaşlı nənənin boks məşqləri...

## “

## Azərbaycan iqtisadi azadlıq indeksində ön sırada

**Əli Əlirzayev,**
İqtisad Universitetinin professoru, iqtisad elmlər doktoru

Bu statusu qorumaq üçün hökumət bu il islahatlarını davam etdirməlidir.

➤➤ Səh. 3

## STATİSTİKA



■ Qadınlar güzgüyə baxmağı çox sevirlər. Belə ki, ilboyu qadınlar 120 saat və ya 5 gün bütöv güzgüyə baxırlar.

■ Qadınlar ayaqqabılara pul xərcləməyi xoşlayırlar. Orta hesabla, hər qanının qarderobunda 19 cüt ayaqqabı olur.

■ Qadınlar il ərzində 30-64 dəfə ağlayırlar. Kişilərdə bu göstərici maksimum 17-yə bərabərdir.



➤➤ Səh. 7

# "Azərbaycan Türkiyədə hər kəsin ürəyindədir"